04 (1259) 2-8 fevral 2023-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

## MACARISTANLA ƏLAQƏLƏRİMİZİN ƏN BÖYÜK DƏYƏRİ QARŞILIQLI ETİMAD VƏ BİRGƏ FƏALİYYƏTDİR



*"Əziz dostumun (Viktor Orban) dediyi kimi, biz enerji dostları deyilik, biz əsl dostlarıq. Son bir il ərzində Azərbaycana enerji resurslarının təchizatı ilə bağlı 10-dan çox ölkədən sifarişlər gəlib, xahişlər edilib. Deyə bilərəm ki, bütün bu təkliflər indi müzakirə edilir və qərarlar sonra qəbul ediləcək".* Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Budapeştdə onun şərəfinə verilən rəsmi naharda bildirib.

"Macarıstanla Azərbaycan arasında təbii qaz sahəsində əməkdaşlığa dair bu gün imzalanmış sənəd deyə bilərəm ki, cəmi üç gün ərzində hazırlanmışdır və bu gün imzalanmışdır. Yəni, üç gün, özü də bu, "weekend" günləri idi. Amma o yetərli oldu ki, biz çox önəmli strateji addımı bu gün ataq və öz imzamızı qoyaq. Bu, bir daha əlaqələrimizin nə qədər səmimi olmasından xəbər verir. Əlaqələrimizin ən böyük dəyəri məhz budur - qarşılıqlı etimad, qarşılıqlı hörmət və qarşılıqlı maraqlar üzərində birgə fəaliyyətimiz", - deyə dövlətimizin başçısı vurğulayıb.

## AZƏRBAYCAN ŞƏHƏRSALMA İSTİQAMƏTİNDƏ MACARISTANLA BİRGƏ İŞLƏMƏKDƏ MARAQLIDIR

"Bu gün macar şirkətlərinin azad edilmiş Qarabağ və Zəngəzur torpaqlarında fəaliyyəti ilə bağlı da fikir mübadiləsi aparılıb".

Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə birgə mətbuata bəyanatında bildirib.

Dövlətimizin başçısı deyib ki, Azərbaycan şəhərsalma istiqamətində çox böyük təcrübəsi olan Macarıstanla birgə işləməkdə maraqlıdır: *"Çünki on min kvadratkilometrə bərabər olan azad edilmiş torpaqlarda bir daş daş üstə qalmayıb. Bütün binalar, bütün infrastruktur işğal dövründə dağıdılıb və biz, əlbəttə ki, bu bölgələri yenidən canlandıracağıq. Artıq Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilib".*



Əməkdaşlıq üçün digər vacib sahənin minatəmizləmə olduğunu qeyd edən dövlətimizin başçısı bildirib ki, Azərbaycan İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində bu sahədə böyük problemlərlə üzləşib. "Bir milyondan çox mina təmizlənməlidir. Müharibədən sonra iki il ərzində 300-ə yaxın Azərbaycan vətəndaşı ya həlak olub, ya da ki, ağır yaralanıb. Ona görə bu sahədə Macarıstanın təcrübəsini nəzərə alaraq biz əməkdaşlıq üçün yaxşı imkanlar görürük", - deyə Azərbaycan Prezidenti vurğulayıb.

## AZƏRBAYCAN ARTIQ BÜTÜN AVROPA ÜÇÜN STRATEJİ TƏRƏFDAŞDIR

*"Azərbaycan ilə Macarıstanın rəhbərləri arasında keçirilən görüşlər hər zaman müstəsna əhəmiyyətə malikdir. Cənab Prezident və mən 10 ildən artıqdır ki, bir yerdə çalışırıq, ölkələrimizi bir–birinə daha da yaxınlaşdırırıq, əməkdaşlığı dərinləşdiririk və hər iki ölkənin mövqeyinə uyğun səviyyəyə gətirməyə çalışırıq".*

Bu barədə Macarıstanın Baş naziri Viktor Orban Azərbaycan Prezidenti İlham Əliyev ilə birgə mətbuata bəyanatında bildirib.

Azərbaycan Prezidenti ilə strateji məsələlərə dair müzakirələr aparıldığını deyən Baş nazir qeyd edib ki, bu günə qədər olan strateji əməkdaşlığımız növbəti səviyyəyə qaldırıldı.

"Bu gün beynəlxalq münasibətlərdə olan mühit əvvəlkindən olduqca təhlükəlidir. Bizim qonşuluğumuzda baş verən müharibə və Brüssel tərəfindən tətbiq edilmiş sanksiyalar Macarıstan üçün olduqca təhlükəli bir vəziyyət yaradıb, bizim enerji təhlükəsizliyimiz, Avropanın enerji təhlükəsizliyi həssas məqama qədəm qoyub. Burada yaranan bu şərait Azərbaycanın əhəmiyyətini dərhal artırdı. Bu əhəmiyyət bir növ sıçrayış etdi.

Azərbaycan hər zaman bizim dostumuz olub, indi isə o, artıq bütün Avropa üçün strateji tərəfdaş olan ölkədir", - deyə Viktor Orban vurğulayıb.

## YAŞIL ENERJİ İLƏ BAĞLI LAYİHƏLƏR AZƏRBAYCANI AVROPA ÜÇÜN DAHA DA YAXIN EDƏCƏK

*"Yaxın keçmişdə aşkarlanan böyük yaşıl enerji potensialı Azərbaycanın önəmini daha da artırır. Yaşıl enerji ilə bağlı olan və artıq icra olunan layihələr bizi Avropa üçün daha da yaxın edəcək".* Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Budapeştdə Macarıstanın Baş naziri Viktor Orban ilə birgə mətbuata bəyanatında səsləndirib.

*"Hörmətli dostum qeyd etdiyi kimi, keçən ay imzalanmış sazişə əsasən, Azərbaycan yaşıl enerjisini Avropaya çatdıracaq və bu gün bu məsələlər bir daha müzakirə edildi. Bir neçə gündən sonra Bakıda keçiriləcək birinci rəhbər komitədə bu layihədə cəmləşən ölkələr – Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya bir araya gələrək gələcək fəaliyyətin konsepsiyası üzərində işləməyə başlayacaqlar"*, - deyə dövlətimizin başçısı bildirib.

## TEHRANDAKI SƏFİRLİYİMİZDƏ TÖRƏDİLƏN TERROR AKTI AZƏRBAYCAN TƏRƏFİNDƏN HƏRTƏRƏFLİ ARAŞDIRILIR



*"Azərbaycan Respublikasının Tehrandakı səfirliyinin binasında törədilən terror aktı hazırda Azərbaycan tərəfindən hərtərəfli şəkildə araşdırılır".*

Bunu Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin Milli Təhsil naziri Mahmut Özeri və Türkiyə Böyük Millət Məclisinin (TBMM) bir qrup üzvünü videokonfrans formatında qəbul edərkən deyib.

Dövlətimizin başçısı bildirib ki, səfirliyimizin binasında törədilən terror hadisəsi prosesinin xeyli vaxt çəkməsinə baxmayaraq, İranın polis və təhlükəsizlik qüvvələri tərəfindən heç bir ciddi tədbir görülməyib. Səfirliyin mühafizə əməkdaşının qəhrəmanlığı nəticəsində terrorçu zərərsizləşdirilib və bununla da silahlı şəxsin səfirliyin başqa əməkdaşlarına və onların ailə üzvlərinə hücumunun qarşısı alınıb.

Türkiyəli nazir səfirliyin binasında törədilən terror aktı zamanı mühafizə xidmətinin rəhbəri Orxan Əsgərovun həlak olması ilə bağlı Prezident İlham Əliyevə başsağlığı verib.

## "BİZ AZƏRBAYCANDA İSTEHSAL EDİLƏN ELEKTRİK ENERJİSİNİ AVROPAYA GƏTİRƏCƏYİK"

Bunu Macarıstanın Baş naziri Viktor Orban Budapeştdə Azərbaycan Prezidenti İlham Əliyev ilə birgə mətbuata bəyanatında bildirib.

Macarıstanın həll yolunun tərkib hissəsi olacağını vurğulayan Baş nazir deyib: "Aydın məsələdir ki, infrastruktur layihələrinin inkişafına böyük ehtiyac olacaq. Burada nəhəng vəsaitlərdən söhbət gedir, böyük layihələr həyata keçirilməlidir. Biz artıq Bolqarıstanın, Rumıniyanın, Slovakiyanın enerji şirkətləri ilə danışıqlara və əməkdaşlığa başlamışıq ki, buraya lazımi vəsait cəlb edilsin. Rumınlar, bolqarlar və macarlar artıq əməkdaşlığa başlayıblar. Bu, təkcə regional deyil, bu, pan-Avropa məsələsidir. Ona görə bizim gözləntimiz odur ki, Avropa Komissiyası bu layihələri dəstəkləyəcək".

## TÜRKİYƏ TƏHSİL SAHƏSİNDƏ TƏCRÜBƏSİNİ AZƏRBAYCANLA BÖLÜŞMƏKDƏN MƏMNUNLUQ DUYUR

"Təhsil sahəsində əlaqələrimiz son illərdə çox sürətlə inkişaf edib. Türkiyə bu sahədə təcrübəsini Azərbaycanla bölüşməkdən məmnunluq hissi keçirir".

Bu fikri Türkiyənin Milli Təhsil naziri Mahmut Özer Azərbaycan Prezidenti İlham Əliyevlə videokonfrans formatında keçirilən görüşdə söyləyib. Türkiyəli qonaqlar Şimali Kipr Türk Respublikasının Türk Dövlətləri Təşkilatının Səmərqənddə keçirilən Zirvə toplantısında təşkilat yanında müşahidəçi statusunun alınması prosesində üzv dövlət kimi Azərbaycanın göstərdiyi dəstəyə görə minnətdarlıq ifadə ediblər.

# AZƏRBAYCAN VƏ MİSİR BEYNƏLXALQ TERRORÇULUĞA QARŞI BİRGƏ MÜBARİZƏNİ GÜCLƏNDİRİR



"Biz bu gün regional təhlükəsizlik məsələlərini müzakirə etdik, eyni zamanda, gələcəkdə təhlükəsizlik sahəsində əməkdaşlığı dərinləşdirmək üçün fikir mübadiləsi apardıq. Beynəlxalq terrorçuluğa qarşı birgə mübarizəmizi gücləndirmək qərarına gəldik, buna böyük ehtiyac var".

Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Misir Ərəb Respublikasının Prezidenti Əbdülfəttah Əs-Sisi ilə mətbuata bəyanatında söyləyib.

Dövlətimizin başçısı deyib ki, beynəlxalq terrorçuluq bütün dünya üçün böyük təhdiddir və bu təhlükəyə qarşı ancaq səylərin birləşdirilməsi nəticəsində uğurla mübarizə aparmaq mümkün olacaq.

# İƏT-in Tədqiqat Mərkəzinin Nizamnaməsi təsdiqləndi

İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Tədqiqat Mərkəzinin Nizamnaməsi təsdiq edilib.

"İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzinin Nizamnaməsi"nin təsdiq edilməsi haqqında qanun layihəsi Milli Məclisin fevralın 1-də keçirilən plenar iclasının gündəliyinə daxil edilib. "İqtisadi Əməkdaşlıq Təşkilatının Tədqiqat Mərkəzinin Nizamnaməsi" 2021-ci il martın 4-də keçirilmiş 14-cü Zirvə Toplantısı zamanı imzalanıb. Nizamnaməyə əsasən Tədqiqat Mərkəzi İƏT-in əsas fəaliyyət istiqamətləri üzrə tədqiqatlar aparılması üçün təşkilatın beyin mərkəzi kimi fəaliyyət göstərəcək. Mərkəzin Qərargahı Bakı şəhərində yerləşir. İƏT-in Tədqiqat Mərkəzi Qəyyumlar Şurası, Elmi Şura və İcra Komitəsindən ibarət olacaq. Qanun layihəsi səsverməyə qoyularaq təsdiqlənib.




# IFC Azərbaycan iqtisadiyyatının şaxələndirilməsinə töhfə verəcək

Beynəlxalq Maliyyə Korporasiyası (IFC) Azərbaycan iqtisadiyyatının şaxələndirilməsini təşviq etmək məqsədilə yaradılmış ixracyönümlü sənaye zonası olan Ələt Azad İqtisadi Zonası ilə əməkdaşlığa maraq göstərən potensial investorları müvafiq layihələri hazırlamaqda dəstəkləmək üçün imkanlar arayacaq.

IFC-dən AZƏRTAC-a bildirilib ki, neft sektorunun ölkədə iqtisadi inkişafın əsas sütunu olmasına baxmayaraq, Azərbaycan, həmçinin qeyri-neft sektorunda mövcud olan imkanları özəl sektor üçün innovativ təşəbbüslərə, o cümlədən Ələt Azad İqtisadi Zonası vasitəsilə təkan vermək niyyətindədir. Bu yanaşma ötən il qəbul olunmuş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədində də əksini tapıb.

Bu strategiyanı dəstəkləmək məramı ilə IFC Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumu ilə anlaşma memorandumu imzalayıb. Memoranduma əsasən, fəaliyyətini Ələt Azad İqtisadi Zonasında davam etdirməkdə maraqlı olan şirkətlər üçün məsləhətçi və layihələrin ilkin mərhələdə inkişafı üzrə dəstəkləyici çərçivə qurulacaq. IFC Avstriyanın Federal Maliyyə Nazirliyi ilə tərəfdaşlıqda və Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumu ilə birgə Azad Zonanın rezidentləri üçün dəstək və məsləhət xidmətləri təqdim edəcək. Məqsəd Azərbaycanın "xalis sıfır" karbon mühitə keçidini və iqlim dəyişməsinə dayanıqlı inkişafını təmin edəcək şirkətlərə müvafiq investisiya layihələrini müəyyən etmək və işlənib hazırlanmasında kömək göstərməkdir.

"Ələt Azad İqtisadi Zonası investorlar üçün unikal bir mühit yaradaraq, Azərbaycanda müasir enerji, nəqliyyat və logistika infrastrukturu ilə səciyyələnən bilik əsaslı, rəqabətli iqtisadiyyat qurmaq səylərinin mərkəzindədir. IFC ilə əməkdaşlığımız bizə ən qabaqcıl beynəlxalq standartlara önəm verərək, bu məqsədə nail olmağa kömək edəcək", - deyə Ələt Azad İqtisadi Zonasının səlahiyyətli qurumunun sədri Valeh Ələsgərov bildirib.

Qeyd edək ki, Azərbaycan 1995-ci ildən Beynəlxalq Maliyyə Korporasiyasının üzvüdür.

# PREZİDENT İLHAM ƏLİYEVİN RƏHBƏRLİYİ İLƏ AZƏRBAYCAN BÖYÜK UĞURLAR QAZANIB

"Diplomatik əlaqələrin qurulmasından bəri Azərbaycana gələn ilk Misir Prezidenti olmaqdan şərəf duyuram".

Bu sözləri Misir Prezidenti Əbdülfəttah Əs-Sisi Azərbaycan və Misir arasında sənədlərin imzalanmasından sonra mətbuata bəyanatında səsləndirib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı böyük uğurları xüsusi qeyd edən Misir Prezidenti deyib: "Azərbaycan xalqının və hökumətinin səyləri nəticəsində yaradılmış bu gözəllikləri görmək bizi çox valeh etdi. Sizin ölkənizə davamlı inkişaf və tərəqqi arzu edirəm".

# AZƏRBAYCAN VƏ MİSİR BEYNƏLXALQ TƏŞKİLATLARDA BİR-BİRİNİ BUNDAN SONRA DA DƏSTƏKLƏYƏCƏK

**"Azərbaycan və Misir bundan sonra da beynəlxalq təşkilatlarda birgə fəaliyyət göstərəcək, bir-birini bundan sonra da dəstəkləyəcək".**

Bunu Azərbaycan Prezidenti İlham Əliyev misirli həmkarı Əbdülfəttah Əs-Sisi ilə mətbuata birgə bəyanatında bildirib.

Dövlətimizin başçısı deyib ki, ölkələrimiz bu günə qədər iştirak etdikləri beynəlxalq təşkilatlarda - BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində bir-birinə qarşılıqlı dəstək göstərib.

# Mərkəzi Bank bu il ilk dəfə uçot dərəcəsini artırıb



Azərbaycan Mərkəzi Bankının İdarə Heyəti 2023-cü ildə uçot dərəcəsilə bağlı ilk qərarını açıqlayıb. Faiz dərəcəsi 0.25 faiz bəndi artırılaraq 8.5%-ə, faiz dəhlizinin aşağı həddi 0.5 faiz bəndi artırılaraq 6.75%-ə, faiz dəhlizinin yuxarı həddi isə 0.25 faiz bəndi artırılaraq 9.5%-ə qaldırılıb. Bu qərar daxili və xarici mühitdə inflyasiyaya artırıcı və azaldıcı təsir göstərən amillərin dinamikası nəzərə alınmaqla verilib.

# Bakıda II Aqrobiznesin İnkişafı Forumu keçirilib

Bakıda Kənd Təsərrüfatı Nazirliyi yanında fəaliyyət göstərən Aqrar Kredit və İnkişaf Agentliyinin (AKİA) təşkilatçılığı ilə II Aqrobiznesin İnkişafı Forumu keçirilib.

Tədbirdə Kənd Təsərrüfatı və İqtisadiyyat Nazirliklərinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin rəhbər şəxsləri, hər iki Nazirliyin tabeli qurumlarının, Mərkəzi Bankın, Azərbaycan Banklar Assosiasiyasının, ölkədə fəaliyyət göstərən bankların, həmçinin yerli və beynəlxalq təşkilatların nümayəndələri iştirak ediblər.

Artıq ikinci ildir təşkil olunan forumun keçirilməsində əsas məqsəd ölkədə aqrobiznesin inkişafında rolu olan tərəfləri bir araya gətirməklə beynəlxalq və yerli təcrübəni, mövcud vəziyyəti, imkanları, o cümlədən aqrobiznesə maliyyə dəstəyi və dövlət güzəştlərindən daha çox fermer-sahibkarın faydalanması üçün lazım olan addımları müzakirə etməkdir.

Tədbiri açan kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova ölkə iqtisadiyyatında və əhalinin məşğulluğunda mühüm rolu olan aqrar sektora göstərilən dövlət dəstəyi, bu sahənin inkişafı istiqamətində həyata keçirilən tədbirlər barədə məlumat verib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov ölkəmizdə kənd təsərrüfatının inkişafı, bu sahədə sahibkarlıq fəaliyyəti ilə bağlı fikirlərini bölüşüb.

Azərbaycan Mərkəzi Bankının Baş direktoru Toğrul Əliyev, Azərbaycan Sahibkarlar Təşkilatları Milli Konfederasiyasının prezidenti Məmməd Musayev aqrobiznes sektorunun mövcud potensialı və investisiya perspektivləri, o cümlədən bu sahənin inkişafı ilə bağlı dövlət-özəl sektor əməkdaşlığı və digər məsələlərə toxunublar. Aqrobiznesin İnkişafı Forumu öz işini panel sessiyalarla davam etdirib.



# Ötən il ölkədə 322 min tondan çox pambıq yığılıb

2022-ci il pambıqçılıq mövsümündə sahələrdən 322300 ton kondisiya çəkidə məhsul yığılaraq tədarük məntəqələrinə təhvil verilib.

Pambıq üzrə orta məhsuldarlıq 30,92 sent/ha təşkil edib.

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən bildirilib ki, başa çatmış mövsümdə ölkədə 100 min hektardan artıq sahədə pambıq əkilib. 2021-ci il mövsümü ilə müqayisədə əkin sahələrinin həcmi dəyişməsə də, tarlalardan 35259 ton çox məhsul yığılıb. Ümumi məhsuldarlıq göstəricisi isə əvvəlki illə müqayisədə 2,42 sent/ha artıb.

Qeyd edək ki, dövlət dəstəyinin genişləndirilməsi fermerlərin pambıq əkininə marağını artırıb. Aqrar Subsidiya Şurasının qərarına əsasən, 2022-ci ilin məhsulu üçün tədarük məntəqələrinə təhvil verilən pambığa görə yalnız məhsul subsidiyası verilir. Eyni qərarla məhsul subsidiyasının məbləği hər tona görə 100 manatdan 170 manata qaldırılıb.

# Xalqımız heç zaman ədalətsizliyə və haqsızlığa biganəlik göstərməyib və göstərməyəcək

*Bildiyimiz kimi, bir neçə gün əvvəl Azərbaycanın İrandakı səfirliyinə silahlı hücum olundu, nəticədə iki vətəndaşımız yaralandı, biri isə həlak oldu. Təbii ki, tarixə nəzər yetirdikdə İran tərəfindən, ümumiyyətlə xarici ölkə səfirliklərinə bu cür hücum aktlarının bir neçə dəfə şahidi olmuşuq. Buna nümunə kimi, 1829-cu ildə Rusiyanın Tehrandakı səfirliyinə, 1979-cu ildə ABŞ-ın İrandakı səfirliyinə, 2011-ci ildə İrandakı Böyük Britaniya səfirliyinə, 2016-cı ildə Tehrandakı Səudiyyə Ərəbistanı səfirliyinə hücumları qeyd etmək olar. Bütün bu deyilənlər isə birmənalı şəkildə İranın Vyana Konvensiyasının müddəalarına məhəl qoymadığının və ölkə ərazisindəki diplomatik nümayəndəlikləri qorumağı bacarmadığının, yaxud qorumaq istəmədiyinin göstəricisidir. Məlumdur ki, artıq uzun müddətdir Azərbaycana qarşı davam edən bu düşmən siyasətin arxasında özlərinin uydurduğu kimi, sadə bir "ailə-məişət" problemi adlandırdıqları cəfəng fikir dayanmır. Bütün bunlarla bağlı daha ətraflı və əsaslı məlumat vermək, hadisələri bir ekspert nəzəri ilə dəyərləndirmək, prosesləri daha dərindən təhlil etmək məqsədilə iqtisadçı alim, akademik, Milli Məclisin deputatı Ziyad Səmədzadəyə müraciət etdik.*

**- Ziyad müəllim, Azərbaycanın İrandakı səfirliyində baş verən olaylar, təbii ki, hər birimizi çox üzdü. İranın belə addımları bizdə təəssüf doğursa da, açıq deməliyik ki, artıq bizi təəccübləndirmir. Lakin ilk olaraq istərdim münasibətlərin hazırki vəziyyətindən deyil, bir az əvvələ qayıdaraq, Azərbaycan-İran münasibətlərinin qarşılıqlı əməkdaşlıq şəraitində davam etdiyi dönəmlər barəsində məlumat verəsiniz.**

- Əlbəttə, baş verənlər, vətəndaşımızın İranda terror aktı nəticəsində həlak olması, ölkəmizə qarşı haqsızlıq – bütün bunlar nəinki biz, ən nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən də təəssüflə qarşılandı və şiddətlə qınandı. Xalqımız ölkə Prezidenti cənab İlham Əliyevin səyləri və qətiyyəti sayəsində təqsirkarların tez bir zamanda layiqli cəzalarını alacaqlarına inanır. Sualınıza gəlincə, düzdür, tarixə nəzər yetirdikdə görürük ki, Azərbaycan və İran arasında diplomatik münasibətlərin formalaşması heç də asan olmamışdır. İran və Azərbaycan islam aləminə mənsub xalqlar olmaqla bərabər, din, mədəniyyət, mənəvi dəyərlər baxımından da yaxın olmuş, ortaq tarixə malik olmaları dövlətlərarası əlaqələrin inkişafına müsbət təsir göstərmişdir.

Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti qurulduğu zaman bir sıra mürəkkəb problemlərə və ciddi maneələrə baxmayaraq, iki ölkə arasında diplomatik münasibətlər formalaşmış, hətta imzalanan dostluq müqaviləsinə əsasən, İran Azərbaycan Xalq Cümhuriyyətini de-yure tanımışdır. Sovet hakimiyyəti illərində də İranla mədəni və elmi-ədəbi əlaqələrdə Azərbaycanın özünəməxsus yeri olmuşdur. Təbii ki, bu əlaqələr sovet sisteminin sərt qaydaları ilə müəyyən olunurdu. Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra da iki dövlət arasında diplomatik münasibətlər inkişaf etmiş, 25 dekabr 1991-ci ildə İran İslam Respublikası Azərbaycanın müstəqilliyini tanımışdır. Təbii ki, ötən illər ərzində iki ölkə arasında münasibətlər heç də həmişə hamar səciyyə daşımasa da, müştərək tarixi-mədəni irsə, ümumi mənafelərə əsaslanmaqla əlaqələr mehriban qonşuluq və qarşılıqlı faydalı əməkdaşlıq çərçivəsində davam etmişdir.

**- Ziyad müəllim, necə düşünürsünüz, özünüz də qeyd edirsiniz ki, münasibətlər heç də hər zaman hamar olmamışdır, amma indiki vəziyyətə də gəlib çatmamışdı. Sizcə də, bu vəziyyətləri hər zaman hamarlayan tərəf biz deyilmiydik? Bizim bu qədər mehriban, həlim davranmağımızın səbəbi haqsız yerə bölünərək, ayrı düşdüyümüz soydaşlarımızın həsrəti, torpaqlarımızın nisgilidir bəlkə?**

- Bəli, tarixdə bəlkə də ən ədalətsiz müqavilələr məhz xalqımızı, torpağımızı parçalayan, həm də bunun haqsız şəkildə həyata keçirilməklə rəsmiləşdirildiyi Türkmənçay və Gülüstan müqavilələridir. Azərbaycanımız 19-cu əsrin əvvəllərində ikiyə bölünməyə, parçalanmağa, ayrılıq əzabını, həsrətini yaşamağa məhkum edildi. Çox doğru qeyd edirsiniz ki, ötən iki əsrdə cənublu soydaşlarımızın taleyi və aqibəti unudulmadı, hər zaman diqqət mərkəzində oldu. Zorla ikiyə - Cənubi və Şimali Azərbaycana bölünsək də, xalqımız bu tarixi ədalətsizliyə və haqsızlığa heç bir zaman biganəlik göstərməmişdir.

Ondandır ki, cənub mövzusu, qardaş və bacılarımızın illərlə bir-birlərindən ayrı qalması daim ədəbiyyatımızda, mədəniyyətimizdə, incəsənətimizdə yaşadılıb və bu gün də yaşadılmaqdadır. İstər Cənubi Azərbaycandan olan mütəfəkkirlərimiz, ədiblərimiz, yazıçı və şairlərimiz - Mirzə İbrahimov, Mir Cəlal Paşayev, Mədinə Gülgün, Balaş Azəroğlu, Söhrab Tahir, istərsə də Azərbaycanımızın şimalında yaşayıb-yaradan söz, sənət ustadlarımız tərəfindən Güney Azərbaycan mövzusu daim qələmə alınıb, tarixə çevrilib, unudulmayıb. Cənublu böyük söz ustadımız Məhəmmədhüseyn Şəhriyarın "Azərbaycan" şeirini bilməyən yəqin ki, çətin tapılar. Şairin yana-yana, için-için yazdığı sətirləri xatırladıqda belə insanın qəlbi sızlayır: (şeiri deməyə başlayır).

*Könlüm quşu qanad çalmaz sənsiz bir an,*
*Azərbaycan.*
*Xoş günlərin getmir müdam xəyalımdan,*
*Azərbaycan.*
*Səndən uzaq düşsəm də, mən eşqin ilə*
*yaşayıram,*
*Yaralanmış qəlbim kimi qəlbi viran*
*Azərbaycan.*
*Bütün dünya bilir - sənin qüdrətinlə,*
*dövlətinlə*
*Abad olub, azad olub mülki-İran,*
*Azərbaycan.*
*Vətən eşqi məktəbində can verməyi*
*öyrənmişik,*
*Ustadımız deyib "heçdir vətənsiz can",*
*Azərbaycan.*
*Övladların nə vaxtadək tərki-vətən*
*olacaqdır?*
*Əl-ələ ver, üsyan elə, oyan, oyan,*
*Azərbaycan!*
*Bəsdir fəraq odlarından kül ələndi başımıza,*
*Dur ayağa! Ya azad ol, ya tamam yan,*
*Azərbaycan!*
*Şəhriyarın ürəyi də səninki tək yaralıdır,*
*Azadlıqdır mənə məlhəm, sənə dərman,*
*Azərbaycan! (kövrəlir)*

Təsəvvür edin, bu misralar sadəcə bir şeir deyil, Arazı iki qardaş arasında çəkilən pərdəyə bənzədən, böyük düha sahibi Şəhriyarın, bir növ qəlbinin nisgilidir, ikiyə parçalanmış vətənin həsrəti, haqsızlığa qarşı üsyanıdır. Yaxud, qəlbləri riqqətə gətirən "Ayrılıq" mahnısı - iki yerə parçalanmış xalqın illərdir birgə himninə, ürək ağrısına, dünyanın ədalətsizliyinə qarşı üsyana çevrilib.

Məmməd Səid Ordubadinin "Dumanlı Təbriz", Mirzə İbrahimovun "Gələcək gün", Süleyman Rüstəmin dillərə dastan olan "Təbrizim" şeiri – bunlar hamısı sənət əsərləri, bu mövzuda qələmə alınan ən möhtəşəm əsərlərdəndir. "Təbrizim" şeirindəki tək bir bənd belə o nisgili ifadə etməyə yetir:

*Bülbül zar-zar ağlar çəməndən ayrı,*
*İnsan deyib gülməz vətəndən ayrı,*
*Can necə yaşasın bədəndən ayrı?*
*Aç öz ürəyini danış, Təbrizim.*
*Olum dərdlərinə tanış, Təbrizim!*

Bunların hər birində bizim uşaqlığımız, yeniyetməliyimiz, gəncliyimiz var, biz bu əsərlərlə tərbiyələnmişik, onları oxumaqla daim cənub mövzusunu yaddaşlarımıza əbədi həkk etmişik. Bu gün də Cənubi Azərbaycan mövzusu əbədiyyatımızda, mədəniyyətimizdə, incəsənətimizdə aktuallığını qoruyub saxlamaqdadır.

**- Bilirik ki, torpaqlarımızın haqsız və ədalətsiz bölgüsünə qarşı xalqımız yalnız qələmini qılınca çevirməklə mübarizə aparmayıb, həm də sözün həqiqi mənasında qılıncını siyirərək ciddi mübarizələr aparıb.**

- Təbii ki, bunlar hamısı tarixdir və tarixi unutmaq olmaz. Səttar xan, Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvəri... Qeyd etdiyim bu tarixi şəxsiyyətlər torpaqlarımızın ilhaqına, ikiyə parçalanmasına öz etiraz səslərini ucaldıb, illərlə mübarizə aparıb və bu yolda canlarını fəda ediblər. Seyid Cəfər Pişəvəri 1945-ci ildə Azərbaycan Demokrat Firqəsini (ADF) yaradaraq, həmin ilin oktyabr ayında keçirilən I qurultayda Mərkəzi Komitənin sədri, dekabr ayının 12-də isə Azərbaycan Milli Hökumətinin Baş naziri təyin edildi. Məhz həmin hökumət İranın daxilində Azərbaycanın milli muxtariyyət hüququnu bərpa edərək, azərbaycanlıların öz ana dilində danışmaları, yazıb-oxumaları üçün şərait yaratdı. Məktəblərdə ana dilində dərslərin keçirilməsini təmin etdi. Savadsızlığın kökünü kəsmək üçün qəti addımlar atıldı. Fəhlələr üçün iş qanunu, qadınlar üçün kişilərlə bərabər hüquqlar, bütün ölkədə əhəmiyyəti olan torpaq islahatı həyata keçirildi. Güney Azərbaycanda görülən demokratik tədbirlər hətta düşmənlər tərəfindən belə etiraf edilirdi. Azərbaycanda bu demokratik islahatlar nəinki İran irticasını, həm də İranda müstəmləkəçilik siyasəti yürütmək arzusunda olan Böyük Britaniyanı narahat etdiyindən onlar birləşərək, Azərbaycan Milli Hökumətinin varlığına son qoydular. Bununla da cənublu qardaşlarımızın milli-azadlıq hərəkatını yenidən amansızcasına qan içində yatırdılar. 1947-ci ildə isə Pişəvəri Gəncə şəhərindən qayıdarkən Yevlax yaxınlığında müəmmalı şəkildə maşın qəzasına düşdü və həlak oldu.

Amma bu qanlı hadisələr də ikiyə bölünmüş xalqın, şimallı və cənublu soydaşlarımızın ruhunu, əzmini qıra bilmədi. 1989-cu ilin sonlarında istər Azərbaycanın şimalından, istərsə də cənubdan olan insanlarımız gözdağına çevrilmiş Araz çayının ətrafına toplaşaraq, 31 dekabrda bir xalqı ikiyə bölmüş qanlı məftilləri qırdı və ruhən, mənən bir-birinə qovuşdu.

**- Ziyad müəllim, o da məlumdur ki, Azərbaycan müstəqillik qazandıqdan sonra - 1991-ci ilin dekabrında Azərbaycan Respublikası Ali Sovetinin nümayəndə heyətinin rəhbəri kimi ilk dəfə İran İslam Respublikasına rəsmi səfər edən şəxslərdən biri də siz idiniz. Bu səfər barədə daha ətraflı məlumat verərdiniz.**

- Bəli, biz o zaman İrana səfər etmişdik və çox maraqlı, yaddaqalan bir səfər olmuşdu. Hətta imkan tapıb Təbrizdə, Ərdəbilə də getmişdik, Şəhriyarın məzarını ziyarət etmişdik, məzarı önündə məşhur "Azərbaycan" şeirini də söyləmişdim. Çox duyğulu, təsirli anlar idi. Səfərimiz başa çatdıqdan bir müddət sonra isə - 1991-ci ilin dekabr ayının 25-də isə İran rəsmi olaraq Azərbaycanın müstəqilliyini tanımışdı. O vaxtdan da rəsmi əməkdaşlıq, tərəfdaşlıq münasibətlərimiz yarandı. Lakin qeyd etməliyəm ki, həmin səfər zamanı görüşdüyümüz rəsmi şəxslər Azərbaycanın müstəqilliyini elan etməsinə açıq şəkildə münasibət bildirməsələr də, buna çox da sevinmədiklərini hiss etmək mümkün idi.

**- Bu münasibətlərin pisləşməsinə, hətta səfirliyimizə hücum edib, soydaşımızı öldürmə həddinə gələcək qədər korlanmasına səbəblərdən danışaq. Təbii ki, biz İranın xəyanətini 44 günlük müharibə dövründə də, daha əvvəl də görmüşdük. Lakin normal əməkdaşlıqda ipləri bu həddə qoparacaq olan nəydi?**

- Yuxarıda da bəhs etdiyimiz kimi, Azərbaycan 32 illik müstəqilliyi dövründə hər zaman İranla səmimi qonşuluq və dostluq münasibətlərinə önəm verib və bu münasibətlərin pozulmasına yönələn addımlardan çəkinib. Eyni zamanda, qarşı tərəfdən, qonşu dövlətdən də bu cür münasibəti gözləyib. Ancaq bir sıra hallarda bunun tam əksini görüb.

İranın Azərbaycana qarşı münasibətinin dəyişməsində, hazırki səviyyəyə gəlib çıxmasında ən vacib amil onun daim ölkəmizə qarşı işğalçılıq siyasəti yeridən, qanunlara, beynəlxalq konvensiyalara məhəl qoymayaraq sərvətlərimizi talayan, xalqımıza amansız işgəncələr verən, soyqırımlar törədən Ermənistana daha çox meyillənməsi, ona daim açıq və gizli dəstəyini nümayiş etdirməsi, Şuşanın və digər yurd yerlərimizin işğalından sonra Dağlıq Qarabağ və ona bitişik ərazilərdə tarixi, dini abidələrimizin, İslam abidələrinin, məscidlərin, qəbiristanlıqların, ziyarətgahların ermənilər tərəfindən dağıdılmasına, mundarlanmasına, vandalizm aktlarına susqunluq nümayiş etdirməsi, Ermənistanın Azərbaycana qarşı mənəvi, maddi, siyasi ekspansiyasına göz yummasıdır. **Heç təsadüfi deyil ki, Ermənistanın ilk prezidenti olmuş Levon Ter-Petrosyan sonradan öz xatirələrində qeyd edirdi ki, əgər İrandan yardım və dəstək olmasaydı, 1992-ci ildə Ermənistan blokadada məhv olacaqdı...**

Azərbaycan ən çətin, ən sıxıntılı məqamlarda belə hər zaman İrana öz dəstək və yardımını nümayiş etdirsə də, xüsusilə İrana qarşı sərt sanksiyalar tətbiq edildiyi zamanda onun yanında olsa da, İran öz xəyanətkar əməllərindən əl çəkmədi və anti-azərbaycançılıq nümayiş etdirdi. Dövlətimiz İranla ikitərəfli və Rusiya ilə birlikdə üçtərəfli əməkdaşlıq əlaqələrinin gücləndirilməsinə önəm verdi. Azərbaycan, Rusiya və İran prezidentlərinin "Üçlər" formatında bir araya gəlməsi və Zirvə toplantılarının keçirilməsi məhz Azərbaycanın səmimi və konstruktiv əməkdaşlıq niyyətlərinin əyani təcəssümüdür.

**(davamı gələn sayımızda)**

**Müsahibəni hazırladı,**
**Mətanət Hüseynova**



Şeyx Məhəmməd Xiyabani



Səttar xan



Mir Cəlal Paşayev



Seyid Cəfər Pişəvəri



Məhəmmədhüseyn Şəhriyar



Mirzə İbrahimov



Mədinə Gülgün



Süleyman Rüstəm



Söhrab Tahir

# Bu hücum məkrli niyyətin növbəti təzahürü idi

Düz 30 il işğala məruz qalan, problemin çözülməsi uğrunda olmazın çabalar göstərən Azərbaycan Respublikası başqa çıxış yolu tapa bilməyib, savaşa başlamalı oldu. Bu, elə-belə savaş deyildi. Həm döyüş meydanında, həm də informasiya cəbhəsində fədakarlıqla vuruşmaq lazım gəlirdi. Döyüş meydanında müzəffər ordumuz, informasiya müharibəsində cənab Prezident, Ali Baş Komandan İlham Əliyev öz sözünü dedi: Bununla da Azərbaycan öz tarixində misli-bərabəri görünməyən zəfər qazandı. Bu qələbəni həzm edə bilməyən qüvvələr istər döyüşlər zamanı, istərsə də müharibədən sonra açıq və gizli təxribatlara əl atmağa başladılar. Bu qüvvələr sırasında işğalçı Ermənistandan sonra cənub qonşumuz, İran İslam Respublikası xüsusi fəallıq göstərmişdir. Azərbaycan Respublikasının İran İslam Respublikasındakı səfirliyinə edilən hücum da bu məkrli niyyətin növbəti təzahürü, Azərbaycan dövlətinə qarşı cəhd və təhdid kimi qiymətləndirilməlidir.

Bu hərəkət, eyni zamanda regiona sülh, əmin-amanlıq, barış mesajları göndərən və bütün qonşuları səmimi əməkdaşlığa çağıran Azərbaycan dövlətinin regionun geosiyasi və geoiqtisadi mənzərəsini dəyişmək təşəbbüslərinə qarşı çıxmaqdır. Bu hadisə rayonda xaos, hərc-mərclik, qarşıdurma yaratmaq niyyətini güdməkdən başqa bir şey deyildir? Necə olur ki, İran polisinin gözü qarşısında səfirliyə sərbəst şəraitdə silahlı hücum edəsən, əməkdaşlara avtomatdan atəş açasan, bir nəfəri qətlə yetirəsən, iki nəfəri yaralayasan, bundan İran kimi bir dövlətin hüquq-mühafizə orqanlarının xəbəri olmasın. Cəfəng görünür, elə deyilmi?!

Özü də bütün dönəmlərdə İrana xoş münasibət göstərən, əsl qonşuluq əlaqələri sərgiləyən Azərbaycan kimi dövlətə qarşı belə bir qanlı terror əməli törətmək nə beynəlxalq hüquqa, nə qonşuluq münasibətlərinə, nə də ki mənəviyyata sığmır. Odur ki, qısa vaxt ərzində İran dövləti belə qanlı cinayətin üstünün açılması, onu törədənlərin mühakimə olunması və ciddi cəzalandırılması istiqamətində dərhal və qeyd-şərtsiz fəaliyyətə keçməlidir. Qonşuluq əlaqlərimizin tamam sınmamasının yeganə yolu budur.

**Zulfü İLYASOV**

# “Bir kərə yüksələn bayraq, bir daha enməz!"

## Məhəmməd Əmin Rəsulzadə

**Yanvarın 31-i Azərbaycanın dövlət və ictimai xadimi, siyasətçi və publisist, Azərbaycan Xalq Cümhuriyyətinin (1918-1920) banilərindən və Azərbaycan siyasi mühacirətinin liderlərindən olmuş Məhəmməd Əmin Rəsulzadənin doğum günüdür. Azərbaycan milli istiqlal hərəkatına başçılıq edən Məhəmməd Əmin Rəsulzadənin anadan olmasından 139 il ötür.**

O, 31 yanvar 1884-cü ildə Bakının Novxanı kəndində anadan olub.

İlk təhsilini ikinci “Rus-müsəlman” məktəbində alıb, daha sonra təhsilini Bakı texniki məktəbində rus dilində davam etdirib. Məhəmməd Əmin Rəsulzadə inqilabi fəaliyyətə də həmin illərdə başlayıb. 1902-ci ildə 17 yaşında olan M.Ə.Rəsulzadə “Müsəlman gənclik təşkilatı”nı yaradıb. Bu, XX əsrdə Azərbaycanda rus müstəmləkə üsul-idarəsinə qarşı gizli mübarizə aparan ilk siyasi təşkilat idi.

1917-ci il oktyabrın 26-dan 31-ə qədər 500 nümayəndənin iştirakı ilə Bakıda təntənəli surətdə keçirilən Müsavat Partiyasının birinci qurultayında Məhəmməd Əmin Rəsulzadə Mərkəzi Komitənin sədri seçilib. Bu qurultaydan sonra Bakıda və Azərbaycanın bütün qəzalarında “Azərbaycana muxtariyyət” şüarı altında milli hərəkat başlayıb.

1917-ci ilin payızında M.Ə.Rəsulzadə Rusiya parlamentinə Azərbaycan və Türküstandan millət vəkili seçilib.

1918-ci il mayın 26-da Zaqafqaziya seymi daxili fraksiyaların çəkişmələri nəticəsində ləğv olunur. Mayın 27-də seymin müsəlman fraksiyasına daxil olan müxtəlif partiyaların üzvlərindən ibarət olan Azərbaycan Milli Şurası yaradılır.

Səs çoxluğu ilə M.Ə.Rəsulzadə milli şuranın sədri seçilir. 1918-ci il mayın 28-də bütün ölkələrin radiostansiyaları və qəzetləri Azərbaycan Xalq Cümhuriyyətinin elan olunmasını dünyaya yayır. Beləliklə, Azərbaycan xalqı nəinki türk xalqları içərisində hətta bütün Şərqdə ilk dəfə olaraq respublika qurdu.

1920-ci il aprelin 27-də baş verən sovet işğalı səbəbindən Azərbaycan Xalq Cümhuriyyəti süqut etdi. AXC-nin qurucuları Azərbaycanı tərk etməli oldular.

1920-ci il aprelin 28-də Azərbaycan Rusiya tərəfindən işğal olunduqdan sonra Məhəmməd Əmin Rəsulzadə





Moskvaya, oradan isə Finlandiyaya gedib. Onun **"Bir kərə yüksələn bayraq, bir daha enməz!"** ifadəsi XX əsrdə Azərbaycanda müstəqillik hərəkatının şüarı olmuşdur.

Məhəmməd Əmin Rəsulzadə uzun müddət Avropada mühacir həyatı yaşasa da, ömrünün son illərini Türkiyədə keçirdi və 1955-ci il martın 6-da Ankarada həyata vida etdi. Məzarı Ankaranın mərkəzindəki Əsri məzarlığındadır.

**M.Ə.Rəsulzadə 71 yaşında dünyadan köçərkən son olaraq üç dəfə “Azərbaycan, Azərbaycan, Azərbaycan”... sözlərini işlədib.**

29 dekabr 1993-cü ildə Azərbaycan Prezidenti Heydər Əliyev “Azərbaycanın görkəmli ictimai-siyasi xadimi Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 110 illik yubileyinin keçirilməsi haqqında” sərəncam imzalayıb.

22 noyabr 2013-cü ildə isə Azərbaycan Prezidenti İlham Əliyev Məhəmməd Əmin Rəsulzadənin 130 illik yubileyinin keçirilməsi haqqında sərəncam verib.

**Sərəncama əsasən, respublikada və respublikadan kənarda silsilə yubiley tədbirləri keçirilib.**

Həmçinin Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasının 100-cü ili münasibətilə Prezident İlham Əliyev tərəfindən 2018-ci il “Cümhuriyyət ili” elan edilib.

# Xankəndi-Laçın yolunda aksiya davam edir

Xankəndi-Laçın yolunda aksiya 53 gündür davam edir. 2022-ci il dekabrın 12-də səhər saatlarından başlayan aksiya ötən gecə boyu da davam edib. Havanın soyuq və şaxtalı olmasına baxmayaraq, Azərbaycanın Qarabağ iqtisadi rayonunda faydalı yataqların qanunsuz istismarı əleyhinə Xankəndi-Laçın yolunda keçirilən etiraz aksiyası əlli iki gündür davam edir, gənc aktivistlər gün ərzində olduğu kimi, yüksək fəallıq göstərirlər.



Təhlükəsizlik qaydalarına yüksək səviyyədə əməl olunan toplanış yerində gecə boyu da heç bir insident baş verməyib. Həmişə olduğu kimi, etirazçılar bu səhəri də Azərbaycan Dövlət Himninin səsləndirilməsi ilə açıblar. Daha sonra vətənpərvərlik ruhunda mahnılar ifa ediblər.

Eyni zamanda ekofəallar yolun hər iki tərəfində, hərəkətə maneə törətmədən üzərində Azərbaycan, rus və ingilis dillərində yazılmış plakatlar qaldırıb, şüarlar səsləndiriblər.

Qeyd edək ki, Şuşa ərazisində Rusiya sülhməramlılarının nəzarətində olan yolun bir hissəsində etiraz aksiyası azərbaycanlı aktivistlər və ekologiya üzrə qeyri-hökumət təşkilatlarının (QHT) üzvləri tərəfindən Qarabağ iqtisadi rayonunda ekoloji terrora son qoyulması tələbi ilə keçirilir. Aksiya iştirakçıları günlərdir ki, yüksək əzm, mətanət, qətiyyət nümayiş etdirirlər.

# Azərbaycanın Rus İcması ekofəalların qanuni tələblərini dəstəkləyir

“Azərbaycanın Rus İcmasının və Rus Gəncləri Assosiasiyasının üzvləri Laçın yolunda ekofəalların dinc aksiyasına qoşulublar”.

Bu barədə AZƏRTAC-a Azərbaycanın Rus İcması sədrinin birinci müavini Anastasiya Lavrina bildirib.

“Aksiyanın ilk günündən Azərbaycanın Rus İcması Laçın yolunda azərbaycanlı ekofəalların hərəkətlərini və qanuni tələblərini dəstəkləyir. Dekabrın 12-dən bəri ekofəallar və Azərbaycan QHT-lərinin təmsilçiləri ölkənin Qarabağ bölgəsində yerləşən Laçın-Xankəndi yolunda dinc aksiya keçirir, bu regionda faydalı qazıntı yataqlarının qanunsuz istismarının dayandırılmasını tələb edirlər. Bu gün biz şəxsən bu aksiyaya yataqların talanmasının, qarət etdiklərinin sonradan Ermənistana göndərilməsinin dayandırılması tələbi ilə qoşulduq.

Bu, bizim torpağımızdır, Qarabağ Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləridir və bizim hərəkətlərimizi qınayanlar qoy özünə bu sualı versin: bəs onlar öz ərazilərində qanunsuz istismarı və ekologiyanın məhv olunmasına yol verərdilərmi? Əlbəttə, yox”, - deyə A.Lavrina bildirib.

# Muğanlı-İsmayıllı-Qəbələ yolu yenidən qurulur

Əhalinin rahat gediş-gəlişində xüsusi əhəmiyyətə malik, paytaxtımızı İsmayıllı, Qəbələ, Oğuz, Şəki, Qax, Zaqatala və Balakən rayonları ilə birləşdirən ən qısa yol hesab olunan Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun Muğanlı-İsmayıllı-Qəbələ hissəsinin yenidən qurulması davam edir.



AAYDA-dan verilən məlumata görə, Hazırlanan layihənin icrası ilə, Muğanlı-İsmayıllı-Qəbələ yolunun uzunluğu yenidənqurma nəticəsində 9.7 km qısalaraq 76.8 km təşkil edəcək.

Qeyd edək ki, respublikanın mühüm turizm bölgələrinə gedən və ilk dəfə ötən əsrin 70-ci illərində ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə salınmış bu yolun yenidən qurulması Prezident İlham Əliyevin verdiyi tapşırığa əsasən layihələndirilib.

# Dövlət satınalmalarında KOB-un payı 95 faiz olub



“2022-ci ildə Azərbaycanda dövlət satınalmalarında mikro, kiçik və orta biznes subyektlərinin payı 95 faiz təşkil edib”.

Bu barədə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin rəisi Məmməd Abbasbəyli 2022-ci ilin yekunlarına həsr olunmuş mətbuat konfransında deyib.

"Dövlət satınalmalarının ümumi məbləği 6,779 milyard manat təşkil edib ki, bu da 2021-ci ilin göstəricisindən 767,5 milyon manat, yaxud 12,8% yüksəkdir", - o deyib.

M.Abbasbəyli müsabiqə müraciətlərinin ümumi məbləğinin 4,5 milyard manat təşkil etdiyini vurğulayıb ki, bu da inişilki göstəricidən 1,854 milyard manat və ya 70,1% yüksəkdir.

"Müsabiqə müraciətləri çərçivəsində açıq tenderlər üzrə ümumi məbləğ 2,226 milyard manat, elektron açıq tender üzrə 1,204 milyard manat, kotirovka sorğuları üzrə 67,9 milyon manat, təklif sorğuları üzrə isə 1,002 milyard manat təşkil edib", - o əlavə edib.

M.Abbasbəyli əlavə olaraq, elektron satınalmaların həcminin 1,272 milyard manat (18,8%) təşkil etdiyini bildirib.

# Sənaye zonalarında məhsul istehsalı artıb



Sənaye zonaları istehsalın genişləndirilməsi, idxalın əvəz edilməsi və yeni ixrac imkanlarının yaradılması baxımından əlverişli mexanizmdir. Azərbaycanda fəaliyyət göstərən sənaye zonalarında indiyədək ümumilikdə 8,8 milyard manatdan çox məhsul istehsal edilib, bunun 2,9 milyard manatlıq hissəsi (təqribən 33%-ə yaxın hissəsi) ixrac olunub.

İqtisadi Zonaların İnkişafı Agentliyindən bildirilib ki, 2022-ci ildə sənaye zonalarının rezidentləri tərəfindən 2,9 milyard manat dəyərində məhsul satışı həyata keçirilib ki, bunun da 1,1 milyard manatı ixracın payına düşür. 2021-ci illə müqayisədə satış 22,7%, ixrac isə 13% artıb.

“Bu dövrdə sənaye zonalarının qeyri-neft sənayesi məhsulları istehsalında xüsusi çəkisi 16,7%, ixracında isə 29,5% təşkil edib”, - məlumatda qeyd olunub. Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 50-dən çox ölkəsinə (Kanada, ABŞ, BƏƏ, Çin, Hindistan, İsrail, İspaniya, İtaliya, Avstriya, İngiltərə, Brazilya və s. ölkələrə) ixrac edilib.

# Azərbaycan nəcib bəşəri istəklərə doğru irəliləyir

**Azərbaycan dövlətinin son illərdə nəqliyyat sahəsində reallaşdırdığı layihələr qlobal anlamda diqqət mərkəzindədir. Xüsusilə, regionda və dünyada baş verən geosiyasi gerçəklər fonunda bu layihələrin önəmi artmaqdadır. Ölkəmizin ərazisində həm Orta Dəhlizdə, həm də Şimal-Cənub Nəqliyyat Dəhlizi ilə bağlı bütün işlər, demək olar ki, yekunlaşıb.** Azərbaycan hazırda dəmir yolu xətlərinin bir hissəsini modernləşdirir. Eyni zamanda, Bakı-Yalama və daha sonra Ələt-Astara xətlərinin də modernləşdirilməsi nəzərdə tutulur. Cənab prezidentin də qeyd etdiyi kimi, indiki vəziyyətdə dəmir yolunun imkanları gözlənilən yüklərin həcmi müqabilində məhduddur. Rəqəmlərə müraciət edək. Təkcə Şimal-Cənub Nəqliyyat Dəhlizi ilə Azərbaycan ərazilərindən mərhələli qaydada 15 milyon tondan 30 milyon tona qədər yük daşına biləcəyi ehtimal olunur. Dövlət başçısının təbirincə desək, bu, çox böyük rəqəmdir. **Hazırda Azərbaycanın bütün tranzit imkanları bunun kiçik bir faizini təşkil edir. Ona görə də Şimal-Cənub Nəqliyyat Dəhlizi Orta Dəhlizlə rəqabət apara biləcək layihədir. Nəzərə alaq ki, Rusiya-Ukrayna müharibəsi fonunda bu layihə Rusiya üçün xüsusi prioritet kəsb etmişdir. Orta Dəhlizlə bağlı da ardıcıl və sistemli siyasət yürüdülür. Beş il öncə reallaşan Bakı-Tbilisi-Qars dəmir yolunun indiki dönəmdə əhəmiyyəti artmaqdadır. Sözügedən layihənin icrası zamanı xeyli gecikmələrin olmasına baxmayaraq, layihə uğurla gerçəkləşdi. Səbəbi isə təcavüzkar Ermənistanın layihədən kənarda qalmasıdır, çünki bu istiqamətdə işlərə bəzi Qərb qüvvələri əngəl olurdu. Digər bir problem isə maliyyə çatışmazlığı, beynəlxalq maliyyə qurumları tərəfindən layihəyə maraq göstərilməməsi idi. Azərbaycan dövləti neftdən ilkin gəlirlər əldə etdikdən sonra bu layihənin icrasına real imkan yaranmış oldu.**

Belə ki, Gürcüstana 775 milyon dollar kredit verildi ki, bu da layihənin icrasına imkan yaratdı. Hazırda respublikamız qeyd edilən layihənin genişləndirilməsi ilə ciddi məşğuldur. Keçən il dövlət başçısının büdcədən 100 milyon manatdan çox vəsaitin ayrılmasına göstəriş verməsi və bunun bir hissəsinin artıq reallaşdırılması deyilənlərə sübutdur. Prezident İlham Əliyev Bakı-Tbilisi-Qars dəmir yolunun genişləndirilməsi ilə əlaqədar demişdir:

"Biz bu dəmir yolunun ötürmə qabiliyyətini indiki 1 milyon tondan 5 milyon tona qədər artıracağıq. Amma bu, kifayət etməyəcək. Düzdür, Qərb istiqamətində digər imkanlar da var, o cümlədən Gürcüstan limanları. Biz, əlbəttə ki, onlardan da istifadə edəcəyik, o cümlədən limanların biri Azərbaycana məxsusdur. Amma yenə də gözlənilən yüklərin həcminə nəzər salsaq, görərik ki, bu da çatmayacaq. Çünki keçən il mənim Orta Asiya ölkələrinin rəhbərləri ilə çoxsaylı görüşlərim olub və deyə bilərəm ki, hər görüşdə bu mövzu müzakirə edilirdi. Odur ki, Orta Asiyadan gedən yüklər üçün yeni yolların olması zərurət doğurur. Xəzər dənizindən keçən marşrutun vaxt baxımından çox diqqət çəkməsi, eyni zamanda Azərbaycanın müştərək tarif siyasəti həyata keçirməklə bu yolu iqtisadi cəhətdən cəlbedici etmək istəyi məsələnin aktuallığını daha da artırır. Hazırda bu istiqamətdə danışıqlar gedir. Lakin Orta Asiya ölkələrinin yükgöndərmə potensialı və həmin regiona Avropadan gedən yüklərin artan həcmi tələbatı tam ödəməyə imkan vermir. Yalnız Zəngəzur dəhlizinin fəaliyyətə başlaması ilə bu məsələnin daha dolğun şəkildə həll olunmasına real imkan yaranacaqdır. Azərbaycan üçün bu layihə təkcə iqtisadi və nəqliyyat layihəsi deyil, həm də strateji əhəmiyyət daşıyan projedir. Hər şeydən öncə, bu, Azərbaycan dövlətinin təbii haqqıdır və 10 noyabr 2020-ci ildə üçtərəfli bəyannamədə öz əksini tapmışdır. Həmin bəyannamədə açıq-aşkar şəkildə Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat bağlantısının olması və Ermənistanın da bununla razılaşması öz ifadəsini tapıb. İki ildən artıq vaxt keçməsinə, Azərbaycanın öz üzərinə düşən öhdəlikləri yerinə yetirməsinə baxmayaraq, Ermənistan bundan boyun qaçırmaq istəyir, regionda yeni nizam yaradılmasına mane olur.

Azərbaycan nadir ölkələrdəndir ki, açıq dənizə çıxışı yoxdur. Bu barədə Prezident İlham Əliyev DAVOS İqtisadi Forumunda keçirdiyi görüşlərdə vurğulamışdır ki, buna rəğmən, Azərbaycan beynəlxalq nəqliyyat və logistika mərkəzinə çevrilib. Respublikamızın müasir infrastrukturu - dəmir yolları, hava limanları, Qara dənizdə işləyən ən böyük donanması var. Bu gün Azərbaycan dünya nəqliyyat bazarında ciddi tərəfdir. **Qarşıda duran əsas məsələlərdən biri Zəngəzur dəhlizinin açılmasıdır. Bu isə tarixi zərurətdir.**

**Ermənistan istəsə də, istəməsə də bu layihənin reallaşması heç bir şübhə doğurmur. Çünki Azərbaycan ədalətli iş aparır, bütün beynəlxalq prinsiplərə uyğun hərəkət edir. Azərbaycan regionun lider dövləti olmaqla bərabər, dünya birliyinin nüfuzlu üzvüdür.** O, dünyanın dörd bir yanına sülh, barış, əməkdaşlıq və firavanlıq mesajları göndərir. Bu isə ən nəcib və bəşəri istəkdir.

***Zülfü İLYASOV,***
***"İqtisadiyyat" qəzetinin***
***xüsusi müxbiri***

# Mərkəzi Bank inflyasiyanın azaldılması üçün tədbirlər görür




Bu barədə Azərbaycanın Mərkəzi Bankının (AMB) idarə heyətinin sədri Taleh Kazımov faiz dəhlizinin parametrlərindəki dəyişikliklərə həsr olunmuş mətbuat konfransında deyib.

Onun sözlərinə görə, 2023-cü ildə Azərbaycanda illik inflyasiyanın səkkiz faiz səiyyəsində olacağı gözlənilir.

O, həmçinin bütünlükdə 2022-ci ildə maliyyə sektorunda mühüm makroiqtisadi dəyişikliklərin müşahidə olunduğunu xatırladıb. Burada söhbət ilk növbədə inflyasiyadan, neft məhsullarının qiymətlərindəki artımdan, həmçinin bu və ya digər məhsullara tələbin dinamik dəyişməsindən gedir. "Azərbaycan da dünya iqtisadiyyatının bir hissəsi olaraq dünyadakı iqtisadi şokun təsirini görüb və görməyə davam edir. Mərkəzi Bank öz mandatına uyğun olaraq bu risklərin azaldılması üçün zəruri tədbirləri görür", - T.Kazımov deyib.

Qeyd edək ki, 2022-ci ildə illik inflyasiya dərəcəsi 14,4 faiz olub ki, bu da pik səviyyədən (15,6 faiz sentyabr ayında müşahidə olunub) 1,2 faiz aşağıdır. Dekabr ayında ərzaq inflyasiyası 19 faiz səviyyəsində olub. İstehsalçı qiymətlərindəki artım tempi (dekabrda kənd təsərrüfatı məhsulları istehsalçılarının qiymət indekslərindəki illik artım 10,2 faiz, qeyri-neft sektorunda sənaye məhsullarının qiymət indeksi 10,6 faiz olub) və idxal qiymətləri (noyabrda idxal qiymətlərindəki illik artım 23,4 faiz olub) ikirəqəmli göstəricilər səviyyəsindədir.

# AMB "Bank Melli Iran"ın lisenziyasının ləğvini nəzərdən keçirməyə hazırdır

Bunu AMB-nin baş direktoru Toğrul Əliyev "Bank Melli Iran" bankının Azərbaycan şöbəsinin bağlanma ehtimalı haqqında suala cavab olaraq deyib. Onun sözlərinə görə, bugünkü gün



belə bir müraciət olunmayıb. "Biz bank lisenziyasının ləğvini könüllü əsasda, yaxud qanunvericilik kobud şəkildə və dəfələrlə pozulduqda nəzərdən keçiririk" - o əlavə edib.

# Strateji valyuta ehtiyatları 10 faiz artıb

Azərbaycanın strateji valyuta ehtiyatları 10 faiz və ya 5,3 milyard dollar artıb. Bunu çərşənbə günü Azərbaycan Mərkəzi Bankının (AMB) İdarə Heyətinin sədri Taleh Kazımov uçot dərəcəsinin parametrlərində dəyişikliklərlə bağlı keçirilən mətbuat konfransında deyib. Onun sözlərinə görə, tədiyyə balansının əsas komponenti müsbət saldo formalaşdırıb.

# Süni intellekt üzrə Milli Strategiyanın hazırlanması üçün yol xəritəsi tərtib edilib



Bunu İqtisadiyyat naziri Mikayıl Cabarov "Twitter" səhifəsində bildirib.

Nazir qeyd edib ki, bu, Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzi ilə Dünya İqtisadi Forumunun Süni intellekt və maşın öyrənməsi platforması arasında əməkdaşlıq çərçivəsində baş tutub. "Rəqəmsallaşma və müasir texnoloji həllərin tətbiqi ölkəmizin iqtisadi potensialından daha səmərəli istifadə etməyə imkan verəcək", - M.Cabbarov bildirib.

# 5G Azərbaycanın ən sürətli şəbəkəsinin təqdimatında!




Bakcell 5G texnologiyasını istifadəyə verib. Hazırda sınaq rejimində fəaliyyət göstərən 5G şəbəkəsi Bakının müxtəlif ərazilərində - Fəvvarələr Meydanında, Xaqani bağında (Molokan bağı) və "Dəniz Mall" ərazisində mövcuddur.

Azərbaycanın ən sürətli mobil şəbəkəsinin təqdimatında 5G texnologiyasını Huawei, Xiaomi, OnePlus, Poco və Vivo smartfonlarının sahibləri istifadə edə bilər.

Bakcell 5G texnologiyadan istifadə edən abunəçilərinə 5GB balans da hədiyyə edir. Yuxarıda adları çəkilən mobil cihaz sahibləri 5G-nin mövcud olduğu ərazilərdə olarkən telefonda *501*1# kodunu yığmalıdırlar. Əgər abunəçinin cihazı 5G texnologiyasını dəstəkləyirsə, onun nömrəsinin balansına 5 GB həcmində 5G trafiki hədiyyə olunacaq. Bu balans 1 saat ərzində 5G sınaqları keçirilən ərazilərdə istifadə edilə bilər. Ətraflı məlumatı 5g.bakcell.com səhifəsindən əldə etmək mümkündür.

Bakcell Azərbaycanda eSIM və VoLTE texnologiyalarını tətbiq edən ilk mobil operatordur. Bakcell şəbəkəsi Ookla® tərəfindən "Azərbaycanın ən sürətli mobil şəbəkəsi" kimi tanınır.

# Bitkiçilik sektorunun payı 50 faizdən çox artıb

2022-ci ildə ölkə üzrə aqrar sahənin strukturunda bitkiçilik sektorunun payı 52.3 faiz artıb.

Bunu fevralın 1-də kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova 2-ci Aqrobiznesin İnkişafı Forumunda deyib.

O bildirib ki, hesabat dövründə heyvandarlıq sektorunun payı 47.7%, kənd təsərrüfatı məhsullarının istehsal həcmi faktiki qiymətlərlə 10.98 mlrd. manat təşkil etmişdir. Bununla da kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıqda yaradılan əlavə dəyərin ölkə ÜDM-dəki payı 4.8% olmuşdur.

"Bir başqa müsbət göstərici də heyvandarlıq sahəsi üzrə müşayiət olunur. Belə ki, ət istehsalı 2.9%, süd istehsalı 1.9%, süni mayalanma yolu ilə alınmış yüksək məhsuldar buzovlar 4.6%, yumurta istehsalı



8% artmışdır. Arıçılıq sahəsində əlverişli şərait və göstərilən dövlət dəstəyi nəticəsində istehsal həcmi artmış və ölkə üzrə tələbat tam ödənilib", - nazir müavini qeyd edib.

# BÖYÜK QAYIDIŞ: QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR QURUCULUQ VƏ DİRÇƏLİŞ YOLUNDA



Azərbaycanın İkinci Qarabağ müharibəsində Zəfərindən sonra qarşıda duran vəzifələrin yerinə yetirilməsi istiqamətində məqsədyönlü fəaliyyət davam etdirilir.

Şanlı Qələbəmiz  işğaldan azad edilmiş ərazilərdə əsaslı bərpa və quruculuq  işlərinin daha sürətlə aparılmasını şərtləndirir. Qarabağda həyata keçirilən quruculuq işləri ölkəmizin həyatına da çoxsaylı yeniliklər gətirəcək. Prezident İlham Əliyevin çıxışlarında açıqladığı bəyanatlardan görünür ki, Böyük Qayıdış keyfiyyətcə yeni həyata qayıdış olacaq. 30 il əvvəl hətta yaşayış üçün ən vacib əşyalarını belə götürməyə macal tapmadan öz evlərini tərk etmiş sakinlər layiqli həyat şəraiti ilə təmin olunmuş müasir kəndlərə və şəhərlərə qayıdacaqlar. Hərbi əməliyyatlar başa çatdıqdan dərhal sonra bu istiqamətdə ilk addımlar artıq atılmağa başlayıb.

Ötən il noyabr ayının 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır.

Qəzetimizin bu sayından etibarən Böyük Qayıdışla bağlı silsilə yazılar dərc etməyə başlayırıq.

## PREZİDENT, MÜZƏFFƏR ALİ BAŞ KOMANDAN İLHAM ƏLİYEVİN İRADƏSİ VƏ QƏTİYYƏTİ İLƏ İŞĞALDAN AZAD OLUNMUŞ BÜTÜN ƏRAZİLƏRİMİZDƏ HƏYAT YENİDƏN CANLANMAĞA BAŞLAYIR

İşğaldan azad olunmuş ərazilərin yenidən qurulması, bərpası, eləcə də onun dayanıqlı inkişaf yoluna çıxarılması və milli iqtisadiyyata inteqrasiya edilməsi Azərbaycanın milli prioritetidir.Vətən müharibəsinin başa çatmasından cəmi iki ildən bir qədər artıq zaman kəsiyinin keçməsinə baxmayaraq, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yenidən qurulması istiqamətində görülmüş işlərin miqyası möhtəşəm və əzəmətlidir. Füzuli və Zəngilan beynəlxalq hava limanları, Zəfər yolu kimi nəhəng layihələrin başa çatdırılması,  bütün azadolunmuş rayonlarımızda dayanıq lıenerji, su təchizatı infrastrukturunun yaradılması, Ağalı kəndinə keçmiş məcburi köçkünlərin dönüşü, digər  mühüm quruculuq işləri göstərir ki, Prezident İlham Əliyevin milli ideya elanetdiyi Qarabağ və Şərqi Zəngəzurun bərpası sürətli, dinamik və genişmiqyaslıdır.

2022-ciil noyabrın 16-da Prezident İlham Əliyev “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nı təsdiq etmişdir. Bu Proqram Qarabağ və Şərqi Zəngəzura qayıdışla bağlı hədəflərin, qarşıya qoyulan vəzifələrinsistemli, uzlaşdırılmış və nəticə etbarilə səmərəli şəkildə həyata keçirilməsi üçün yol xəritəsi olanmühüm sənəd olaraq, ölkə iqtisadiyyatının dinamik və keyfiyyətli inkişafına xidmət edəcəkdir.

## MÜKƏMMƏL QURUCULUQ KONSEPSİYASI

Xatırladımki, Prezident İlham Əliyev iki il əvvəl – 2021-ci il fevral ayının 2-də “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in təsdiq edilməsi haqqında sərəncam imzalamışdır. Sərəncama əsasən 2030-cu ilədək sosial-iqtisadi inkişafa dair reallaşdırılmalıolan 5 Milli Prioritetdən biri işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdışdır. Sənəddə bununla bağlı deyilir: «Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır.

Regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcəkdir.

Əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu, stimullar əsasında və dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməlidir. Yalnız belə şəraitdə işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək mümkündür.

Bu prioritetin uğurla reallaşdırılması üçün aşağıdakı iki məqsədə nail olunmalıdır:

*- dayanıqlı məskunlaşma;*

*- iqtisadi fəaliyyətə reinteqrasiya”.*

Sərəncama əsasən Milli Prioritetlərə uyğun olaraq “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” hazırlanmış və 2022-ci il iyulun 22-də təsdiq edilmişdir. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” isə bu Strategiyada əks olunmuş “İşğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış” Milli Prioritetinin icrasının təmin edilməsi məqsədilə hazırlanmış və ölkə başçısı tərəfindən təsdiq edilmişdir.

İşğaldan azad olunmuş ərazilərin dayanıqlı məskunlaşması vəbuərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası çərçivəsində “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”n da qarşıya qoyulan məqsədlər bunlardır:

***I. Ərazilərdə təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək;***

***II. Şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək;***

***III. Müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək;***

***IV. Ərazilərdə məskunlaşacaq əhalinin sosial müdafiəsini gücləndirmək;***

***V. Əhalinin məşğulluq imkanlarını artırmaq;***

***VI. Sosial xidmətlərin əhatə dairəsini genişləndirmək və əlçatanlığı təmin etmək;***

***VII. Dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək;***

***VIII. Sahibkarlıq mühitinin əlverişliliyini artırmaq və biznes fəaliyyətinin inkişafına dəstək vermək;***

***IX. Ərazilərin kənd təsərrüfatı potensialından səmərəli istifadə olunması üçün müasir suvarma infrastrukturu formalaşdırmaq;***

***X. Dayanıqlı və mütərəqqi kənd təsərrüfatı təcrübələrini tətbiq etmək;***

***XI. Təbii ehtiyatları və sosial-iqtisadi potensialı təsərrüfat dövriyyəsinə cəlb etmək;***

***XII. Turizm sektorunun perspektiv inkişaf imkanlarından effektiv istifadəyə nail olmaq;***

***XIII. Ətraf mühitin etibarlı mühafizəsini və ekoloji təhlükəsizliyi təmin etmək;***

***XIV. Təbii resurslardan səmərəli və effektiv istifadə etmək;***

***XV. “Ağıllı şəhər”, “Ağıllı kənd” və “Yaşıl enerji zonası” konsepsiyalarının tətbiqini təşviq etmək.***

Bu məqsədlərə nail olmaq üçün “Dayanıqlı məskunlaşma” istiqamətindəmüəyyən edilmiş fəaliyyət planlarına uyğun olaraq, yaşayış məntəqələrində təhlükəsiz yaşayışın, dövlət sərhədinin etibarlı müdafiəsinin, yüksək standartlara cavab verən yaşayış məntəqələrinin, o cümlədən “ağıllı şəhər” və “ağıllı kənd” konsepsiyaları əsasında yeni müasir şəhərlərin və kəndlərin salınması ilə əhalinin layiqli həyat şəraitinintəmin edilməsi, etibarlı su, elektrik, qaz, istilik təminatının həyata keçirilməsi ilə bağlı zəruri layihələrin icrası, bərpa olunan enerji mənbələrindən istifadəyə əsaslanan “yaşıl” texnologiyaların tətbiqi ilə “yaşıl enerji” zonasının yaradılması, yüksək texnologiyaların tətbiqi ilə müasir rabitə, o cümlədən telekommunikasiya və poçt şəbəkələrinin qurulması, qabaqcıl standartlara uyğun təhsil, səhiyyə və sosial xidmətlərin yaradılması istiqamətində tədbirlərin həyata keçirilməsi, məşğulluq imkanlarının artırılması, insan kapitalının inkişaf etdirilməsi, sosial dəstək mexanizmlərinin geniş tətbiqi kimi vəzifələr icra olunacaq.

“Ərazilərin iqtisadi fəaliyyətə reinteqrasiyası”istiqamətində isəişğaldan azad edilmiş ərazilərdə hər bir rayonun ixtisaslaşma sahəsinə uyğun olaraq inkişafının təmin edilməsi, iqtisadiyyatın şaxələndirilməsinin  genişləndirilməsi və sənaye potensialının gücləndirilməsi, kənd təsərrüfatının müxtəlif sektorlar üzrə inkişafının stimullaşdırılması, ərazilərin iqtisadi inkişafının sürətləndirilməsi məqsədilə yüksək ixtisaslı mütəxəssislərin, daxili və xarici investorların cəlb edilməsi üçün həvəsləndirmə və güzəştlər nəzərdə tutulan sadələşdirilmiş iqtisadi modellərin tətbiqi, bank, sığorta və maliyyə xidmətlərinə çıxış imkanlarının genişləndirilməsi, özəl investisiyaların cəlb edilməsi və dövlət-özəl sektor tərəfdaşlığının təmin edilməsi istiqamətində stimullaşdırıcı addımlar atılması, müxtəlif turizm növlərinin inkişafının dəstəklənməsi, bərpa işlərinin həyata keçirilməsi zamanı ətraf mühitin təhlükəsizliyinin təmin olunması kimi vəzifələr nəzərdə tutulur.

Bütün bu məsələlər əsas götürülməklə dövlətimizin ərazilərin bərpası və əhalinin qayıdışına dair baxışı və qarşıya qoyduğu hədəflər Dövlət Proqramının prioritet istiqamətlərini təşkil edir. Beləki, I Dövlət Proqramının tərtibi zamanı mütərəqqi beynəlxalq təcrübə, strateji inkişaf tendensiyaları nəzərə alınmaqla 6 prioritet məqsəd müəyyən edilib. Bu prioritetlər ***“Ərazilərdə təhlükəsiz yaşayışın və dövlət idarəetməsinin təşkili”, “Ərazilərdə şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisi və infrastrukturla təmini”, “Əhalinin geri qayıdışı və ərazilərdə dayanıqlı icmaların yaradılması”, “Ərazilərin inkişafına və reinteqrasiyasına dəstək göstərən strateji əhəmiyyətli və əhatəli infrastrukturun qurulması”, “Dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası”, “Ərazilərdə ekoloji mühitin yaxşılaşdırılması və ekoloji təmiz texnologiyaların tətbiqi”***dir.

## 1. ƏRAZİLƏRDƏ TƏHLÜKƏSİZ YAŞAYIŞIN VƏ DÖVLƏT İDARƏETMƏSİNİN TƏŞKİLİ

İkinci Qarabağ müharibəsində tarixi qələbəyə imza atan Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad etmək üçün başlatdığı əks-hücum əməliyyatlarını çox çətin şəraitlərdə həyata keçirməli olmuşdu. Çünki Ermənistan 30 ilə yaxın müddətdə cəbhə xəttində bir neçə mərhələdən ibarət gücləndirilmiş müdafiə istehkamları yaratmışdı ki, onlardan biri ərazilərin minalanması idi. Lakin bu, ordumuzun hücumlarını əngəlləyə bilməmişvə bölmələrimiz ilk saatlardan düşmənin ön cəbhə xəttindəki bütün səngərlərini ələ keçirmişdilər.

Azərbaycan Silahlı Qüvvələrinin əks-hücum əməliyyatlarından sonra məcburi geriyəçəkilmə mərhələsində də Ermənistan Azərbaycan tərəfinə mümkün qədər daha çox ziyan vurmaq və evlərinə qayıdacaq mülki əhaliyə əlavə maneələr yaratmaq üçün məqsədli şəkildə həmin ərazilərdə kütləvi şəkildə minalar yerləşdirib.

Təxmini hesablamalara görə, Ermənistan ərazilərimizdə bir milyondan çox mina basdırıb. Bu, bir daha Ermənistanın terrorçu siyasətini təsdiqedir.

Buterrorçu fəaliyyətin nəticəsidirki, 10 noyabr 2020-ci il tarixdə Azərbaycan və Ermənistan arasındakı bütün hərbi əməliyyatlara son qoyulduğunu elan edən üçtərəfli bəyanat imzalandığı vaxtdan bəri işğaldan azad olunmuş ərazilərimizdə mina partlaması nəticəsində ümumilikdə 279 nəfər vətəndaşımız minaya düşüb, 36-sı dinc sakin olmaqla 46 nəfər həlak olub.

Ermənistan bir neçə mina sahəsi xəritəsini Azərbaycana versə də, bu xəritələrin praktiki faydası 25 faizdən aşağıdır. Dəfələrlə çağırışlar edilməsinə baxmayaraq, Ermənistan tərəfindən işğal dövründə Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində basdırılmış minaların dəqiq xəritələrinin hələ də ölkəmizə təhvil verilməməsi hərbi qulluqçularla bərabər, mülki şəxslərin də həyat və sağlamlığı üçün ciddi təhlükə olaraq qalmaqdadır.

30 ilə yaxın işğal müddətində Azərbaycan ərazilərində basdırılan minaların xəritələri haqqında dəqiq məlumatın verilməməsi, münaqişə bitdikdən sonra təxribatların davam etdirilməsi, işğaldan azad edilmiş ərazilərin yenidən minalarla çirkləndirilməsi və nəticədə mülki şəxslərin və hərbçilərin həyatına qəsd kimi cinayətkar əməlləri Ermənistanın hərbi-siyasi rəhbərliyinin terrorçumahiyyətinin göstəricisidir. Xüsusilə qeyd etməliyik ki, Ermənistanın sonaylaradək mina terrorunu davam etdirməsi bir daha bu ölkənin bölgədə sülh, təhlükəsizlik və əməkdaşlıq üçün ciddi bir maneə olmasından xəbər verir.

Onu da qeyd edək ki, 2022-ci il dekabr ayının 12-dən başlayaraq Azərbaycanın vətəndaş cəmiyyəti fəallarının, ekoloqların və gənclərin Xankəndi-Laçın yolunda fasiləsiz keçirdikləri aksiya Ermənistandan Qarabağ iqtisadi rayonuna minaların və digər hərbi sursatların daşınmasının qarşısını alıb. Bu gün Ermənistanı və Qarabağdakı separatçı rejimi narahat edən məsələ də məhz budur.

Hazırda işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, bərpası və sonrakı mərhələlərdə dayanıqlı inkişafına nail olunması üçün önəmli strateji istiqamətlərdən biri buərazilərinminalardan, partlamamış hərbi sursatdan, tərkibində partlayıcı olan qurğulardan və digər partlayıcı qalıqlardan təmizlənməsidir. Buməsələ Qarabağ və Şərqi Zəngəzur dadayanıqlığa nail olmaq üçün təhlükəsizliyin təmin edilməsinin əsas prioritetidir. Çünki ərazilərimizin Ermənistan tərəfindən minalarla həddindən artıq çirklənməsi hazırda işğaldan azad edilmiş ərazilərin yenidən qurulması zamanı qarşılaşdığımız böyük problemdir. Minalar və digər partlamamış sursatlar yenidən qurma səylərinə və keçmiş məcburi köçkünlərin təhlükəsiz qayıtmasına əsas maneədir. Beynəlxalq mütəxəssislərin hesablamalarına görə, Azərbaycana ərazilərin minalardan təmizlənməsi məsələsini həll etmək üçün təxminən 30 il və 25 milyard ABŞ dolları lazımdır.

*(davamı gələn sayımızda)*

*Akademik Ziyad SƏMƏDZADƏ*

---

**“Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin**

**SƏRƏNCAMI**

Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizi 30 ilə yaxın müddətdə Ermənistan Respublikası tərəfindən işğal altında saxlanılmışdır. İşğal dövründə bu ərazilərdə Azərbaycanın şəhərləri və digər yaşayış məntəqələri, o cümlədən infrastruktur obyektləri tamamilə dağıdılmış, milli-mədəni irsimiz məhv edilmiş, təbii sərvətlərimiz talan edilmiş, iqtisadiyyata əhəmiyyətli zərər vurulmuş, 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür.

2020-ci il sentyabrın 27-də Ermənistanın növbəti hərbi təxribatına cavab olaraq Azərbaycan Ordusu əks-həmlə əməliyyatına başlamış və 44 gün davam edən Vətən müharibəsi nəticəsində torpaqlarımız işğaldan azad olunmuş, ölkəmizin ərazi bütövlüyü bərpa edilmişdir.

Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoymuşdur. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülmüşdür.

Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

İşğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycanın 2030-cu ilədək beş Milli Prioritetindən biri kimi müəyyən olunmuşdur. Bu Milli Prioritetlərə əsaslanan “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” yeni inkişaf mərhələsindəki hədəflərə çatmağa xidmət edən mühüm sənəddir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nın icrasını təmin etmək məqsədilə qərara alıram:

**1.** “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı” təsdiq edilsin (əlavə olunur).

**2.** Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın (bundan sonra – Dövlət Proqramı) səmərəli icrasının təmin edilməsi məqsədilə zəruri əlaqələndirmə tədbirləri görsün.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

**3.1.** *Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasına nəzarəti və hesabatlılığı həyata keçirsin;*

**3.2.** *Dövlət Proqramının həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə iki dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;*

**3.3.** *bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.*

**4.** Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

**5.** Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə Azərbaycan Respublikasının Maliyyə Nazirliyi və Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi hər il, müvafiq olaraq, dövlət büdcəsinin və dövlət investisiya proqramlarının tərtibi prosesində maliyyə vəsaitinin nəzərdə tutulması üçün zəruri tədbirlər görsünlər.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 16 noyabr 2022-ci il**

# Netanyahudan İrana hücumla bağlı cavab



İsrailin baş naziri Benyamin Netanyahu bütün maraqlı tərəflərin təklifi olacağı təqdirdə Ukrayna böhranında vasitəçi rolunu nəzərdən keçirməyə hazır olduğunu bildirib.
O, CNN telekanalına müsahibəsində belə bir bəyanatla çıxış edib.
*“Əgər hər iki tərəf məndən soruşsa və düzünü desəm, ABŞ məndən soruşsa. Bütün maraqlı tərəflər xahiş etsə, mən bu təklifi mütləq nəzərdən keçirəcəyəm”*, - Netanyahu Ukrayna münaqişəsində vasitəçilik etməyə hazır olub-olmadığı sualına cavab verərkən deyib.
İsrailin baş naziri bildirib ki, Ukrayna böhranı başlayanda ona vasitəçilik təklifi gəlib: *”Ukraynadakı münaqişənin ilkin mərhələsində mənə bu barədə sual verilib”*, – Netanyahu deyib ki, o zaman müxalifətin lideri olub. O, təklifi kimin verdiyi sualına cavab verməkdən yayınıb. *”Məndən soruşdular”*, - deyib.
Baş nazir İsrailin yanvarın 28-də İrana hücumda iştirak edib-etməməsi ilə bağlı suala cavab verməkdən imtina edib. *“Mən heç vaxt konkret əməliyyatlar barədə danışmayacağam. Yaxın Şərqdə hər dəfə partlayış baş verəndə, ilk olaraq, ya hadisəni bizim törətdiyimizi hesab edirlər, ya da birbaşa günahlandırırlar”*,- deyə Netanyahu bildirib.
*“Mən İsrailin baş naziri kimi əlimdən gələni edəcəyəm ki, İranın nüvə silahı əldə etməsinə mane olum, çünki Tehran o silahı bizə qarşı istifadə edəcək”*, - İsrailin baş naziri bildirib.
Xatırladaq ki, yanvarın 29-na keçən gecə İRNA agentliyi İranın mərkəzi hissəsində yerləşən İsfahanda güclü partlayışın baş verdiyini bildirib. Daha sonra ölkənin Müdafiə Nazirliyi bəyan edib ki, yanvarın 28-də dronlardan istifadə etməklə idarənin mərkəzlərindən birinə uğursuz hücum edilib.

# BMT Ukraynadakı bütün tərəfləri atəşkəsə çağırıb



“Bunu BMT Baş katibinin sözçüsünün müavini Fərhan Haq brifinqdə deyib”.
Qərb ölkələrindən Kiyevə döyüş təyyarələri və digər hərbi texnikanın tədarükü ilə bağlı müzakirələrə dair sualı cavablandıran təşkilat rəsmisi bildirib ki, BMT qarşıdurmanın dayandırılmasını istəyir: "Narahatlığımız ondan ibarətdir ki, qarşıdurma davam edir. Biz bunun dayandırılmasını istəyirik. İstəyirik ki, tərəflər hərbi əməliyyatları dayandırmaq üçün mümkün olan hər şeyi etsinlər".

# Parisdə pensiya islahatına qarşı etiraz aksiyası keçirilib



Fransada planlaşdırılan pensiya islahatlarından narazılıqlarını ifadə etmək məqsədilə yüzminlərlə insan ölkə paytaxtı Parisin küçələrinə çıxıb.
Nümayişçilərin sayı 500 min nəfərə çatıb.
Bu, islahat əleyhinə ilk kütləvi etirazların keçirildiyi yanvarın 19-u ilə müqayisədə 100 min nəfər çoxdur.

# Avro zonası iqtisadiyyatı 2022-ci ilin dördüncü rübündə 0,1 faiz artıb



Avrozona iqtisadiyyatı 2022-ci ilin dördüncü rübündə əvvəlki rüblə müqayisədə 0,1 faiz artıb. Region iqtisadiyyatı 2022-ci ildə 3,5 faiz artıb.
Avropa Statistika Komitəsi (Eurostat) 2022-ci ilin son rübündə Avropa İttifaqı (Aİ) və Avrozonanın artım templəri ilə bağlı məlumatları dərc edib.
19 üzvü olan Avro Bölgəsində mövsümi təsirlər xaric edilmiş ümumi daxili məhsul (ÜDM) keçən ilin 4-cü rübündə üçüncü rüblə müqayisədə 0,1% artıb. ÜDM-in 0,1 faiz azalacağı proqnozlaşdırılırdı. Beləliklə, Avrozona artımı bazar gözləntilərini üstələyib. Avro zonasında ÜDM 2022-ci ilin son rübündə 2021-ci ilin eyni dövrü ilə müqayisədə 1,9 faiz artıb.
Aİ-də mövsümi təsirlər xaric ÜDM 2022-ci ilin dördüncü rübündə əvvəlki rüblə müqayisədə dəyişməz qalıb, lakin 2021-ci ilin eyni dövrü ilə müqayisədə 1,8% artıb.
Digər tərəfdən, 2022-ci ildə Avro Bölgəsi iqtisadiyyatı illik müqayisədə (2021-ci illə müqayisədə) 3,5 faiz, Aİ iqtisadiyyatı isə 3,6 faiz böyüyüb.
Ötən rüblə müqayisədə ÜDM əvvəlki rüblə müqayisədə Litvada 1,7%, Avstriyada 0,7%, İsveçdə 0,6%, Çexiyada 0,3%, Almaniyada 0,2% və İtaliyada 0,1% azalıb. Fransada 0,1 faiz, İspaniyada isə 0,2 faiz artıb.
İllik müqayisədə ÜDM İsveçdə 0,6%, Litvada 0,4% azalarkən, Fransada 0,5%, Almaniyada 1,1%, İtaliyada 1,7% və İspaniyada 2,7% artıb.

# ABŞ İrana qarşı sanksiyalar siyahısını genişləndirib




ABŞ İrana qarşı yeni sanksiyalar tətbiq edib.
Sanksiyalar siyahısına İranın hərbi sənaye kompleksinə daxil olan 7 qurumun adı əlavə edilib.
Bu qurumlar və onların rəhbərləri terrorçuluğa verdikləri dəstəyə görə sanksiyalara məruz qalıblar. Bu qurumların ABŞ ərazisindəki bank hesabları dondurulacaq və rəhbərlərinin ABŞ-a daxil olmaları qadağan ediləcək.
Bundan başqa, həmin qurumlarla əməkdaşlıq edən şirkətlərə də sanksiyalar tətbiq olunacaq.

# İran rəsmisi Ukraynanı raketlərlə hədələyib



İran nüvə danışıqları qrupunun müşaviri Məhəmməd Mərəndi Ukraynanı raket, dron və müxtəlif İran silahları ilə hədələyib.
Bu barədə “Al Arabiya” nəşri yazıb.
M.Mərəndini narahat edən məqam Prezident Volodimir Zelenskinin ofisinin müşaviri Mixaylo Podolyakın İrandakı dron zərbələrində Ukraynanın rolunun olmasına işarə etməsi olub. İran rəsmisi deyib ki, Zelenski “belə bir axmaqlıq etməyə peşman olacaq”: “Zelenski İranın pilotsuz uçuş aparatları, raketləri və digər silahlarının yoxetmə gücünün təcrübəsini görə bilir”.
Qeyd edək ki, Ukrayna Prezident Ofisinin müşaviri Mixaylo Podolyak İranın müxtəlif şəhərlərində baş verən partlayışları şərh edərkən Ukraynanın daha öncə xəbərdarlıq etdiyini xatırlatmışdı. Kiyev rəsmisinin bu fikirləri həmçinin İran Xarici İşlər Nazirliyində də hiddət doğurub.

# BVF Rusiya üçün proqnozunu yaxşılaşdırıb

Beynəlxalq Valyuta Fondu (BVF) Rusiya iqtisadiyyatı ilə bağlı növbəti iki il üçün proqnozunu yaxşılaşdırıb, ABŞ üçün isə 2024-cü il üçün proqnozunu 0,2 faiz bəndi aşağı salıb.
Rusiya Federasiyasında iqtisadi tənəzzül 2022-ci il üçün proqnozlaşdırılan 3,4% yox, 2,2% səviyyəsində olub. BVF 2023-cü ildə Rusiya iqtisadiyyatının (ümumi daxili məhsulunun - ÜDM) 0,3% artacağını proqnozlaşdırır ki, bu da ötən ilin oktyabr ayı proqnozundan 2,6 faiz bəndi yaxşıdır. Proqnoza görə, 2024-cü ildə Rusiya iqtisadiyyatı 2,1% artacaq, bu, eyni dövr üçün oktyabr ayı proqnozundan 0,6 faiz bəndi yaxşıdır.
Qlobal iqtisadiyyat üçün BVF 2024-cü ildə 3,1% artım gözləyir ki, bu da ötən ilin oktyabrından 0,1 faiz bəndi daha pisdir. 2023-cü ildə 2,9% artım gözlənilir ki, bu da oktyabr ayı proqnozundan 0,2 faiz bəndi yaxşıdır.
Fondun 2024-cü il üçün ABŞ iqtisadiyyatı ilə bağlı gözləntiləri pisləşib. İndi BVF 2024-cü ildə ABŞ-da, oktyabr proqnozundan 0,2 faiz bəndi aşağı olmaqla 1% artım proqnozlaşdırır. BVF-nin proqnozuna görə, 2023-cü ildə ABŞ iqtisadiyyatı 1,4% artacaq ki, bu da oktyabr ayı proqnozundan cəmi 0,4 bəndi çoxdur.




# BVF 2023-cü ildə neftin qiymətinin 16% azalacağını proqnozlaşdırır



Beynəlxalq Valyuta Fondu neftin bir barelinin orta qiymətinin bu il 16,2% azalaraq 81,13 dollara düşəcəyini proqnozlaşdırır.
Bu barədə BVF-nin dünya iqtisadiyyatının inkişaf perspektivlərinə dair hesabatının yanvar ayı yeniləməsində bildirilir.
“2023-cü ildə neftin qiymətinin təxminən 16%, qeyri-yanacaq əmtəələrinin qiymətlərinin isə orta hesabla 6,3% ucuzlaşacağı gözlənilir”, - deyə hesabat müəllifləri qeyd edirlər.
"Hesablanan orta proqnoz qiyməti 2023-cü il üzrə 81,13 dollar, 2024-cü il üzrə isə 75,36 dollar təşkil edir", - hesabatda deyilir. Beləliklə, gələn il neftin qiyməti 7,1% azalacaq.
BVF-nin məlumatına görə, “enerji bazarları Ukraynadakı münaqişənin yaratdığı iqtisadi şoklara gözlənildiyindən daha sürətli uyğunlaşıb. Bununla belə, keçən il "qlobal enerji və ərzaq qiymətlərinin kəskin artması yaşayış xərcləri böhranına səbəb olub". Fond bildirir ki, Ukraynadakı münaqişə səbəbindən gözləniləndən yüksək neft, qaz və ərzaq qiymətləri inflyasiyasını yenidən artıra bilər.

# ABŞ Kiyevə böyük həcmdə hərbi yardım hazırlayır

"ABŞ Ukraynaya ilk dəfə olaraq daha uzun mənzilli raketlərin daxil olacağı gözlənilən 2,2 milyard dollarlıq hərbi yardım paketi təqdim etməyə hazırlaşır".
Bu barədə "Reuters" agentliyi məlumat yayıb.
Söhbət təxminən 150 km məsafədə yerdən atılan kiçik diametrli GLSDB bombalarından gedir. Eyni zamanda, "Reuters" agentliyinin məlumatına görə, ABŞ Kiyevə 300 km-ə qədər uçuş məsafəsi olan "ATACMS" raketlərinin verilməsi xahişini rədd edib.



Agentliyin məlumatına görə, yeni hərbi yardım paketi hələ bu həftə elan oluna bilər.
400 milyon dollar dəyərində silah Kiyevə birbaşa Pentaqonun ehtiyatlarından ötürüləcək. Məbləğin qalan hissəsi - 1,725 milyard dollar - Ukraynaya Birləşmiş Ştatlar üçün mövcud olan vəsaitlə təmin etmək əvəzinə, Müdafiə Nazirliyi tərəfindən istehsalçılarla müvafiq müqavilələrin bağlanmasını nəzərdə tutan Ukrayna Dövlət Təhlükəsizliyinə Yardım Təşəbbüsü (USAI) çərçivəsində ayrılacaq. USAI vasitəsilə Vaşinqton, xüsusən də Kiyev üçün GLSDB almaq niyyətindədir.
Ağ Evin mətbuat katibinin birinci müavini Oliviya Dalton yanvarın 31-də keçirdiyi brifinqdə deyib ki, ABŞ tezliklə Kiyev hakimiyyətinə yeni hərbi yardım paketini elan edə bilər.
Pentaqonun məlumatına görə, ümumilikdə, Rusiya Federasiyasının Ukraynada xüsusi hərbi əməliyyatı başlayandan bəri ABŞ Kiyevə hərbi yardım üçün 27,1 milyard dollardan çox vəsait ayırıb.

Qarabağın görkəmli simaları

# Xosrov Axundzadə (1889-1960)



***Ömrünün 50 ilini maarif sahəsinə həsr etmiş, respublikamızın görkəmli alim, ədib, şair, rəssam, musiqişünas, bəstəkar, həkim və dövlət xadimləri arasında yüzlərlə yetirmələri olan Xosrov Mirzəli oğlu Axundzadə 1889-cu il iyul ayının 13-də Şuşa şəhərində ziyalı ailəsində anadan olmuşdur. Onun atası Mirzəli Aşiq Zeynalabdın oğlu müəllim olmaqla bərabər, şair və gözəl səsə malik məşhur musiqişünas idi, həmçinin xalqımızın sevimli müğənnisi Cabbar Qaryağdıoğlunun və onun həmkarlarının müəllimi olmuşdur.***

Xosrov Axundzadə Şuşada şəhər (keçmiş "Nikolayski") məktəbində təhsil almışdır. O, bu məktəbdə Üzeyir və Zülfüqar Hacıbəyov qardaşları ilə birlikdə oxumuşdur. Məktəbdə oxuyarkən atası Mirzəli Aşiq vaxtsız vəfat edir. Atasının vəfatından sonra altı nəfər ailə üzvünün ağırlığı onun üzərinə düşür. Gənc Xosrov 1905-ci ildə məktəbi bitirib, 1906-cı ildən dərs deməyə başlayır.

Xosrov Axundzadə 1906-cı ildən 1913-cü ilə kimi Şuşa "Nərimaniyyə", "Nəşri-maarif" və s. məktəblərdə müəllim olmuş, 1913-1917-ci illərdə Şuşada 5 nömrəli məktəbdə müəllimlik etmişdir. 1920-ci ildə Şuşada "Nərimaniyyə" və "Haşimiyyə" məktəblərinin təşkilində Hüseyn Qayıbov, Zülfüqar Abdullayev, Mircabbar Vəzirov, Hacı Zalov və başqaları ilə bərabər Xosrov Axundzadənin də xidməti olmuşdur.

Azərbaycanda Sovet hakimiyyəti qurulan gündən Xosrov Axundzadə də başqa müəllimlər kimi, bütün varlığı ilə qarşıda duran yeni vəzifələrin həllində yaxından iştirak etmişdir. Xosrov müəllim Şuşada savadsızlığın aradan qaldırılmasında mühüm işlər görmüşdür. Xosrov Axundzadə 1935-ci ildə Şuşa şəhər kütləvi kitabxanasına müdir təyin olunmuşdur. 1956-cı ilə kimi Şuşada 7-illik və orta məktəblərinin ibtidai siniflərində dərs demişdir. 1956-cı ildən o, şəxsi təqaüdə buraxılır. Qocaman müəllim 1960-cı il may ayının 10-da Şuşada vəfat etmişdir.

Xosrov Axundzadənin pedaqoji fəaliyyəti, onun təcrübəsi hələ sağlığında respublikamızın pedaqoqlarının diqqətini cəlb etmişdir. 1948-ci ildə professor Əhməd Seyidov və professor Mehdi Mehdizadə Xosrov müəllimə məktub yazmış və ondan öz təcrübə və xatirələrini instituta yazıb göndərməsini xahiş etmişdilər. Xosrov Axundzadə elmi-pedaqoji fəaliyyətinə dair yazıları – "Pedaqoji təcrübə və mülahizələri" 2000-ci ildə "Maarif" nəşriyyatı, 2-ci nəşri isə 2008-ci ildə anadan olmasının 120 illiyi münasibətilə "Adiloğlu" nəşriyyatı tərəfindən çap olunmuşdur. Əsər gənc müəllimlər üçün əhəmiyyətli bir metodik vəsaitdir.

Xosrov Axundzadənin yaradıcılıq fəaliyyətinin bir sahəsi də ədəbi irsimizlə əlaqədardır. O, 54 il ədəbi yaradıcılıqla məşğul olaraq, ədəbiyyat aləmində "Şaiq" təxəllüsü ilə tanınmışdır. Xosrov Şaiq ilk şeir təlimini atası Mirzəli Aşiqdən almışdır.

Xosrov müəllim 1919-cu ilin fevral ayında Həmidə xanımın xahişi ilə Mirzə Cəlilin "ölülər" və "Anamın kitabı" əsərinin üzünü köçürüb, Həmidə xanıma təqdim etmişdir. Bu barədə "Revolyuçiya i kultura" jurnalının 1-ci nömrəsində Həmidə Məmmədquluzadənin "Mirzə Cəlil haqqında xatirələrim"də və filologiya elmləri doktoru Abbas Zamanovun redaktorluğu ilə hazırlanan "Cəlil Məmmədquluzadə" (məqalələr və xatirələr) əsərində qeyd olunmuşdur.

Xosrov Şaiqin Şuşada XIX əsr Azərbaycan yazıçı və şairlərilə əlaqədar olan tarixi yerlər barədə "Xatirələri" bir çox cəhətdən təqdirəlayiqdir. Bu əsərlərdə Azərbaycan maarif və mədəniyyətinin inkişafında böyük rol oynayan ziyalıların fəaliyyəti şirin bir dillə təsvir edilir. Xosrov Şaiq ömrünün son günlərində böyük diqqət və həvəslə qəzəllərini və şeirlərini bir yerə toplayıb, "Məcmueyi-əşarı" əsərinin (şeirlər məcmuəsinin) əl yazmasını xalqımıza nümunə qoyub. Şübhə yoxdur ki, Xosrov Axundzadənin pedaqoji və ədəbi irsi gənc və gələcək nəsillər üçün dəyərli mənbədir.

# "Herta"da forma geyinən sumqayıtlı balası

***Azərbaycan futbolunun, yığma komandanın problemlərindən danışanda hər zaman önə çəkdiyimiz vacib məqamlardan biri də ölkə xaricində yetəri sayda legioner futbolçumuzun olmamasıdır. Bu mənada hər vaxt vurğulamışıq ki, istedadlı futbolçularımız imkan tapan kimi özlərini ölkə xaricində sübut etməlidir. Hazırda sizə haqqında bəhs edəcəyimiz futbolçu Almaniyanın məhşur "Herta" klubunun düşərgəsində yer alıb. 16 yaşı olmasına baxmayaraq, Berlin klubunun U-17 komandasına cəlb olunub.***



Bu, Mətin Sərxanlıdır. 2007-ci il aprelin 16-da Sumqayıt şəhərində anadan olub. Ampluası dayaq yarımmüdafiəçisidir. Boyu 172 sm, çəkisi 62 kq-dır.

Futbolçu ilə bağlı daha ətraflı məlumat almaq üçün atası **Xaqani Abdullayevlə** söhbətləşməyi qərara aldıq. Xaqani bəy söhbətə oğlunun futbola gəlişindən başladı: *"İlk dəfə futbolla tanışlığı 4 yaşında olub. Həmin vaxt biz müvəqqəti olaraq Bakı şəhərində yaşayırdıq, Mətin də futbolla ilk tanışlığa orada başladı. "Gənclik"də bir futbol məktəbi var idi, dostum onu götürüb ora aparmışdı. Sonradan Sumqayıta qayıtdıq və Mətinin əsas karyerası burada başladı. "Sumqayıt" Futbol Akademiyasında ilk müəllimi Orxan Abdullayev olub. Hardasa 5-6 yaşlarında. Orxan müəllimdən sonra yuxarı yaş qruplarında müəllimi Kənan müəllim olub. Daha sonra Hikmət müəllimin qrupunda olub. Ən son olaraq da məhz həmin qrupda 14-15 yaşlılar arasında ölkə çempionatında 2-ci pilləni tutublar. Düzdür, Mətin keçən ilin martında Almaniyaya yollandığı üçün "Sumqayıt"ı tərk etdi, mövsümün sonuna kimi oyunlarda iştirak edə bilmədi, amma sağ olsunlar, onun da medalını sonradan göndərdilər. Bu üç insan, Orxan müəllim, Kənan müəllim və Hikmət müəllim Mətinin hazırlığında böyük zəhmət sərf ediblər. Bir də Sumqayıt futbolunun ağsaqqallarından olan Ağamusa Bağırovun da adını çəkmək istəyirəm, təbii ki, futbolçuların yüksək səviyyədə hazırlanması üçün bütün şəraiti yaradan "Sumqayıt" klubuna, "Sumqayıt" Futbol Akademiyasına, bütün rəhbərliyə, əməyi keçən hər kəsə də öz təşəkkürümü bildirirəm".*

Həmsöhbətimiz daha sonra oğlunun Almaniyaya səfərinin təfərrüatarını bölüşdü: *"Almaniyaya getməzdən əvvəl, Mətin 2021-ci ilin yayında İstanbulda bir məşqçinin yanında fərdi olaraq 2 ay hazırlıq keçmişdi. Bu məqamı ona görə qeyd etdim ki, həmin hazırlıq zamanı aldığı fiziki, taktiki, texniki biliklər Mətinə az kömək etmədi. Almaniyaya gedişi isə 2022-ci ilin martında baş tutdu. İlk növbədə deyim ki, Avropaya getmək özünün hədsiz marağında idi. Mən də çalışırdım ki, hansısa yolla onun bu istəyini yerinə yetirim, amma alınmırdı, çox çətin idi. Neçə mütəxəssislə, menecerlə əlaqə də saxlamışdım, hamısı deyirdi ki, klub tapmaq problem deyil, bütün videolarını, disklərini istənilən kluba göndərmək olar. Amma viza, oturum izni almaq elə də asan deyil. Yekunda Almaniyada yaşayan bir qohumum vasitəsi ilə bu məsələni həll edə bildik. Həmin adamın həyat yoldaşının oradakı futbol dairələri ilə münasibəti olduğundan klub tapmaqda da kömək edəcəklərinə söz verdilər. Uşağın videolarını göndərdik, ardınca biz viza açıldı, getdik Almaniyaya. "Herta"da uğurla baxışdan keçəndən sonra Mətini "Herta-03 Zehlendorf" komandasına qəbul etdilər. Bir neçə aylıq məşqdən sonra "Herta"nın U-17 komandasına cəlb etdilər və hazırda bu komandada forma geyinir".*

Futbolçunun atası oğlunun hazırlıq keçdiyi şərait barədə də danışdı: *"Hazırda orada havalar çox soyuqdur. Şaxtalı, qarlı havalar üstünlük təşkil edir, meydançaların əksəriyyəti buzdur, amma ümumi şərait əladır. Almaniyada daha çox güc futboluna üstünlük verirlər. Məşqçisi Nofəl Belhanda adlı şəxsdir. Sağ olsun, Mətini komandaya o götürdü. Düzdür, ilk vaxtlarda ehtiyatda saxlayırdı, amma tədricən oynamaq şansı da verir. Hazırda çempionatda qış tətili olduğu üçün daha çox yoldaşlıq görüşlərində, fərdi yarışlarda iştirak edirlər ki, fevralda start götürəcək yaz mövsümünə hazır olsunlar. Dediyim kimi, şərait əladır, tələblər yüksəkdir, güclü rəqabət var. Çünki digər ölkələrdən, Afrikadan, postsovet ölkələrindən də futbolçular var və onlarla rəqabət aparmaq, bu rəqabətdən qalib çıxmaq üçün ciddi nizam-intizamın, gücün və iradən olmalıdır".* Bəs gələcəkdə Mətinin milli seçimi necə ola bilər? Almaniya və Azərbaycan arasında seçim yaranarsa hansı ölkəni seçər, ümumiyyətlə Azərbaycan millisində oynamaq arzusu varmı, bundan başqa, AFFA-dan onunla maraqlanan olubmu? Bütün bu suallarımızı da Xaqani bəyə ünvanladıq: *"Mətin çox ambisiyalıdır. Açığını deyim, klub karyerası olaraq, bütünlüklə Avropaya köklənib. Yəni, klub karyerasının gələcəyini bütünlüklə Avropada görür. Hazırkı komandasına da tramplin gözü ilə baxır. "Berlin-03" bir növ "bala komanda" gedir. "Ana komanda" "Herta" gedir. Oğlum da bu tramplindən uğurla istifadə etmək istəyir. Ən azı 3-4 il Almaniyada müntəzəm oynamağı qarşısına şərt qoyub. Bu müddətdə futbolçu kimi tam formalaşmaq istəyir. Artıq 19-20 yaşında tam formalaşandan sonra təbii ki, Azərbaycan millisində oynamaq arzusundadır. Əlbəttə ki, təklif gələrsə… AFFA-dan da onu tanıyırlar, çünki Almaniyaya yollanandan sonra "Herta"ya qəbulu üçün burdan icazə sənəd göndərmək lazım idi və AFFA da sağ olsun, o sənədi göndərdi".*

**Orxan Abdullayev:** *"Mətinin ilk məşqçisi mən olmuşam. Maraq üçün deyim ki, akademiyaya ilk gələndə onu bəyənmirdilər. Amma mən görürdüm ki, qabında nə isə var. Ona görə qalmasını tövsiyə etdim, daha sonra özüm onun üzərində xüsusi işləməyə başladım. Bir ara "Mançester Yunayted" məktəbi var idi, hətta ora düşməyi də bacarmışdı. Daha sonra Almaniyaya getmək variantı ortaya çıxdı və ora yollandı. Həm əzmkarlığına, həm də solaxay olduğuna görə, orda da bəyənirlər. "Herta"da özündən 1-2 yaş böyüklərlə məşq edir və daha güclü klubların maraq dairəsinə düşüb".*

Mətini biz də alqışlayır, "afərin!" deyirik. Uğurların bol olsun, Mətin! Azərbaycanlı adını hər yerdə uca tut və səni gələcəkdə öz milli komandalarımızda görməyi arzulayırıq.

**"İQTİSADİYYAT"**

# Narkotiklərlə mübarizə mövzusunda dəyirmi masa keçirilib

***Yanvarın 26-da Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatının (ÜGT) Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin birgə təşkilatçılığı ilə "Narkotik vasitələr, psixotrop maddələr və onların prekursorlarının qanunsuz dövriyyəsi ilə mübarizədə qurumlararası əməkdaşlığın rolu" mövzusunda dəyirmi masa keçirilib.***



Tədbirdə Daxili İşlər, Səhiyyə, Ədliyyə, Elm və Təhsil, Gənclər və İdman, Əmək və Əhalinin Sosial Müdafiəsi nazirlikləri, Dövlət Təhlükəsizliyi Xidməti, Dövlət Sərhəd Xidməti, TƏBİB və digər qurumların nümayəndələri iştirak edib.

Dövlət Gömrük Komitəsinin sədr müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov çıxış edərək, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi və narkomaniyanın hazırda dünyanı narahat edən əsas problemlərdən birinə çevrildiyini, Azərbaycanın bu sahədə uğurlu mübarizə aparan ölkələrdən olduğunu vurğulayıb, gömrük orqanları tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlərdən bəhs edib.

Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədov, ÜGT-nin Bakı şəhərindəki Potensialın Gücləndirilməsi üzrə Avropa Regional Ofisinin nümayəndəsi Hacı Hacıyev narkotiklərlə mübarizə sahəsində həyata keçirilmiş fəaliyyətlər, bu sahədə qurumlararası əməkdaşlığın əhəmiyyətindən danışıblar.

Daha sonra DGK Tibbi Xidmət İdarəsinin rəis müavini İsmayıl Əfəndiyev **"Çağdaş dünyanın aktual problemi: narkotik vasitələr və psixotrop maddələr"**, Milli Məclisin deputatı, DGK Tibbi Xidmət İdarəsinin Elmi-Təcrübi və Tədris Mərkəzinin rəisi Rəşad Mahmudov **"Narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı dövlət siyasətinin formalaşdırılması və qanunvericilik"** mövzularında təqdimatlarla çıxış ediblər.

Həmçinin tədbir zamanı digər dövlət qurumlarının nümayəndələrinin də mövzu ilə əlaqəli məruzələri dinlənilib.

Sonda mövzularla bağlı müzakirələr aparılıb.

**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi Dilara Zamanova**






**Azəri Light və Brent marakalı neftin 1 barelinin 25 yanvar – 1 fevral tarixlərində birja qiyməti, ABŞ dolları ilə (ICE birjası)**

***Tərtib etdi:*** *İqtisadçı ekspert Maqsud Quliyev*

## ALLAH RƏHMƏT ELƏSİN

Akademik Ziyad Səmədzadə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyevə atası

**NƏBİ NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Professor Elşən Hacızadə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyevə atası

**NƏBİ NƏBİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**Təsisçi:**
**Akademik Ziyad SƏMƏDZADƏ**
**Baş redaktor:**
**Aytən SƏMƏDZADƏ**

**ELMİ-REDAKSİYA ŞURASI:**
**Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Bəyalı Ataşov, Zahid Məmmədov, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev**

**Dizayner:**
**Lamiyə NƏBİYEVA**

**Redaksiyanın ünvanı:**
**Əliyar Əliyev küçəsi, 7**
**Redaksiya: +99412 566 09 60**
**Faks: +99412 514 14 27**
**Mühasibatlıq:**
**+99412 566 63 08**

**Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. "İQTİSADİYYAT" qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, "Azərmedia" MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500**